RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

№ 02 (9457) 9 YANVAR 2024-cü il ÇƏRŞƏNBƏ AXŞAMI

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR



◆ Müəllifi İlham Əliyevdir



## "İlham Əliyevə ömür boyu minnətdarıq"

## Talış kəndində yeni həyata başlayan keçmiş məcburi köçkünlər dövlət başçısına alqış edirlər

"Kəndimizdən məcburi köçkün düşəndə həyatımız qaralmışdı, bu çox ağır gəlirdi mənə...

Yaşadığımız o illərdə necə dözmüşük, təsəvvür edə bilmirəm...

Allah heç kimi yurdsuz-yuvasız eləməsin!

Elə bilirdim ki, uşaqlığım, gəncliyim kənddə dayanıb məni gözləyir.

Düzdür, Azərbaycanın hər diyarı bir sərvətdir, gözəldir. Amma bu kənd mənim üçün daha da əzizdir. Şükürlər olsun ki, sağ-salamat doğma elimizə, obamıza qayıtmışıq.

Köçkünlük artıq bitdi, yeni həyata başlamışıq. Allah İlham Əliyevə can-sağlığı, uzun ömür versin. Torpağımızı da aldı, evi də tikib verdi. Bundan yaxşı heç nə ola bilməz. Kimsə mənə İlham Əliyev kimi prezident göstərə bilərmi? Mümkün deyil! Bizim Prezident kimi dövlət başçısı yoxdur!"

İllər sonra doğma elinə-obasına qayıdan Talış kəndinin sakini Əlişir Allasovun sevincinin həddi-hüdudu yoxdur. İndi yeni mənzilində yeni həyata başlayan Əlişir kişi deyir ki, bundan sonra o biri dünyaya rahat köçə bilər. Çünki İlham Əliyevin sayəsində ən böyük arzusuna çatıb.

Əlişir kişi danışdıqca həyat yoldaşı Gülxanım Mustafayeva sevinc göz yaşlarını saxlaya bilmir. Onun da xoş təəssüratlarını eşitdik: "Nə qədər ağır olsa da, ümidimizi üzməmişdik. Çünki Prezidentimizə inanırdıq. Allah İlham Əliyevin bu yaxşılığını övladlarının, nəvələrinin qarşısına çıxarsın. O bizim arzularımızı çin etdi. Mehriban xanımla birlikdə kəndimizə gəlmişdilər. Ay Allah, insan necə də sadə, səmimi, hər kəslə mehriban ola bilər. Ömrümüzün ahıl çağındayıq, hər gün televizora baxırıq, görürük. Mən hələ hansısa ölkədə İlham Əliyev kimi, Mehriban xanım kimi xalqına qayğı göstərən rəhbərlər görməmişəm. Biz keçmiş məcburi köçkünlər İlham Əliyevə ömür boyu minnətdarıq".

→ 4

## Prezident İlham Əliyevin adından ali qonağın şərəfinə rəsmi ziyafət

**Yanvarın 8-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin adından ölkəmizdə rəsmi səfərdə olan Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Əl Nəhyanın şərəfinə rəsmi ziyafət verilib.**







## Azərbaycanın təşəbbüsləri sülh prosesini sürətləndirir

### Yaranmış tarixi imkanlardan yayınması Ermənistanın yalnız ziyanınadır

Ötən ilin sentyabrında keçirilmiş antiterror tədbirlərindən sonra isə sülh sazişinin imzalanması ilə bağlı imkanlar daha da artıb. Bir neçə gün əvvəl Almaniyanın "Berliner Zeitung" qəzetinə müsahibəsində bu barədə danışan Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev bildirib ki, sentyabrın 19-20-də keçirilən antiterror tədbirlərindən və ölkəmizin suverenliyinin tam bərpasından sonra Azərbaycanla Ermənistan arasında gərginliyin əsas mənbəyi olan Qarabağ məsələsi gündəmdən tamamilə çıxarılıb. "Beləliklə, hazırda biz sülh sazişinin bağlanmasına ciddi maneə görmürük. İndi biz iki ölkə arasında son 30 ilin ən sakit günlərini müşahidə edirik. Hər iki ordu öz kazarmalarına qayıtdığı gündən hətta atışma da baş vermir. Bu yaxınlarda Azərbaycan Prezidenti ilə Ermənistanın baş naziri arasında Sankt-Peterburqda baş tutan qeyri-rəsmi görüş də müsbət məcrada keçib.

→ 2

## Bakının baş planı hazırdır



Dövlət başçısının göstərişinə əsasən, aparıcı qlobal şəhərsalma prinsipləri nəzərə alınaraq şəhərin planlı və sistemli inkişafını təmin etmək məqsədilə Dövlət Şəhərsalma və Arxitektura Komitəsi tərəfindən Bakı şəhərinin baş planı hazırlandı və Nazirlər Kabineti tərəfindən təsdiq edildi.

Baş plan paytaxtın 212,3 min hektarlıq bütün inzibati ərazisini əhatə etməklə növbəti 20 il ərzində şəhərin əsas inkişaf prioritetlərini özündə əks etdirir.

Bakı şəhərinin əhalisinin 2040-cı ilə 3,17 milyon nəfər təşkil edəcəyi proqnozlaşdırılıb. Bu da əlavə çətinliklər yaradacaq. Odur ki, baş plan sonradan yaranan və yuxarıda sadaladığımız müəyyən problemlərin vaxtında həllini tapmasını şərtləndirir.

Şəhərin küçə-yol şəbəkəsinin genişləndirilməsi, ictimai nəqliyyatın təkmilləşdirilməsi, şaxələndirilməsi, metro nəqliyyat sisteminin inkişafı prioritetlər arasında yer alır. Bu hədəflərin reallaşması üçün baş planda nəqliyyat məsələləri öz əksini tapıb. Belə ki, hazırda paytaxtın küçə-yol şəbəkəsi əsasən radial-həlqəvi nəqliyyat marşrutları üzrə təşkil edilsə də, gələcəkdə onların diaqonal marşrutlara çevrilməsi ilə məntiqi tamamlandırılması prinsipi əsas götürülərək paytaxtın yeni nəqliyyat planlaşdırılma sxemi hazırlanıb.

→ 5

## Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Azərbaycana rəsmi səfərə gəlib



Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Əl Nəhyan yanvarın 8-də Azərbaycan Respublikasına rəsmi səfərə gəlib.

AZƏRTAC xəbər verir ki, hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı Heydər Əliyev Beynəlxalq Aeroportunda ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Əl Nəhyanı Azərbaycan Respublikası Baş nazirinin birinci müavini Yaqub Eyyubov, xarici işlər nazirinin müavini Yalçın Rəfiyev və digər rəsmi şəxslər qarşılayıblar.




● Şuşa islam dünyasının mədəniyyət paytaxtıdır

## Ulu yurdumuzdan dünyaya yenə sülh, birlik, humanizm mesajları veriləcək

"Şuşa ili" çərçivəsində həyata keçirilən tədbirlər həm Şuşanın, həm də bütövlükdə Azərbaycan mədəniyyətinin zəngin irsinin, həmçinin türk dünyasının mədəniyyətinin təqdim və təbliğ olunmasında mühüm rol oynadı, türk dövlətləri arasında mədəniyyət sahəsində əlaqələrin inkişafı üçün geniş imkanlar yaratdı.

→ 7

## Birləşmiş Ərəb Əmirliklərinin Prezidentinin Azərbaycana rəsmi səfəri

# Ulu Öndər Heydər Əliyevin məzarını ziyarət



Ölkəmizdə rəsmi səfərdə olan Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Əl Nəhyan yanvarın 8-də Fəxri xiyabana gələrək xalqımızın Ümummilli Lideri, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin məzarını ziyarət edib.

AZƏRTAC xəbər verir ki, Şeyx Məhəmməd bin Zayed Əl Nəhyan Ulu Öndərin xatirəsini ehtiramla yad edib, abidəsi önünə əklil qoyub.

# Şəhidlərin xatirəsinə ehtiram



Azərbaycan Respublikasında rəsmi səfərdə olan Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Əl Nəhyan yanvarın 8-də Şəhidlər xiyabanına gələrək ölkəmizin müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçmiş qəhrəman Vətən övladlarının xatirəsini ehtiramla yad edib.

AZƏRTAC xəbər verir ki, Prezident Şeyx Məhəmməd bin Zayed Əl Nəhyan "Əbədi məşəl" abidəsinin önünə əklil qoyub.

Sonra Bakının ən hündür nöqtəsindən paytaxtımızın mənzərəsini seyr edən Birləşmiş Ərəb Əmirliklərinin Prezidentinə Şəhidlər xiyabanının tarixi və şəhərdə görülən abadlıq-quruculuq işləri barədə məlumat verilib.

# Azərbaycanın təşəbbüsləri sülh prosesini sürətləndirir

## Yaranmış tarixi imkanlardan yayınması Ermənistanın yalnız ziyanınadır

Geridə qoyduğumuz 2023-cü il respublikamız üçün mühüm hadisələrlə, tarixi uğurlarla əlamətdar oldu. Ən böyük uğurumuz isə, əlbəttə ki, bütün torpaqlarımız üzərində milli suverenliyimizin təmin edilməsi, Qarabağdakı erməni separatizminin kökünün tam kəsilməsidir. Bu, yalnız müstəqillik dövrünün deyil, son 200 illik tariximizin böyük hadisəsidir.

### Bakı danışıqların müsbət nəticə verməsi üçün lazımi addımları atır

Torpaqlarımızın üzərində suverenliyimizin tam təmin edilməsindən sonra Azərbaycanla Ermənistan arasında sülh sazişinin imzalanması istiqamətində daha əlverişli tarixi şərait yaranıb. Sülhün əldə edilməsi ilə bağlı çağırışlar və təşəbbüslər hər zaman məhz Azərbaycan tərəfindən olub. İrəvandan fərqli olaraq, Bakı müxtəlif platformalarda aparılmış sülh danışıqları prosesinin müsbət nəticə verməsi üçün bütün addımları atıb. Ölkəmiz münasibətlərin normallaşdırılması və sülhün əldə olunması üçün 5 prinsiplə çıxış edib. Beynəlxalq hüququn norma və prinsiplərinə uyğun olan bu prinsiplər Ermənistanın rəhbərliyi tərəfindən zahirən müsbət qarşılansa da, İrəvan buna heç bir qarşılıq verməyib və bu istiqamətdə müsbətə doğru hər hansı bir addım atmayıb.

Ötən ilin sentyabrında keçirilmiş antiterror tədbirlərindən sonra isə sülh sazişinin imzalanması ilə bağlı imkanlar daha da artıb. Bir neçə gün əvvəl Almaniyanın "Berliner Zeitung" qəzetinə müsahibəsində bu barədə danışan Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev bildirib ki, sentyabrın 19-20-də keçirilən antiterror tədbirlərindən və ölkəmizin suverenliyinin tam bərpasından sonra Azərbaycanla Ermənistan arasında gərginliyin əsas mənbəyi olan Qarabağ məsələsi gündəmdən tamamilə çıxarılıb. "Beləliklə, hazırda biz sülh sazişinin bağlanmasına ciddi maneə görmürük. İndi biz iki ölkə arasında son 30 ilin ən sakit günlərini müşahidə edirik. Hər iki ordu öz kazarmalarına qayıtdığı gündən hətta atışma da baş vermir. Bu yaxınlarda Azərbaycan Prezidenti ilə Ermənistanın baş naziri arasında Sankt-Peterburqda baş tutan qeyri-rəsmi görüş də müsbət məcrada keçib. Amma konkret tarix barədə danışmaq bir qədər çətindir, çünki prosesi yekunlaşdırmaq üçün Ermənistan və Azərbaycan arasında hələ də əlavə danışıqlara ehtiyac var. Düzünü desəm, mən düşünmürəm ki, hər hansı vaxt qrafiki qoyub, məhdud zaman çərçivəsində işləmək düzgün olardı", - deyə Prezidentin köməkçisi bildirib.

### Hikmət HACIYEV: "Sülh sazişi sərhədin delimitasiyasından asılı olmamalıdır"

Vətən müharibəsindən sonra Ermənistan tərəfinin dirənişləri fonunda Azərbaycan kommunikasiyaların açılması, sərhədlərin delimitasiyası və demarkasiyası məsələsində də əsas təşəbbüskar tərəf olub. Bu məsələ ətrafında keçirilən görüşlərdə müzakirələr aparılsa da, Ermənistan üzərinə öhdəliklər götürsə də, hələlik ortada real nəticə yoxdur. Lakin antiterror tədbirlərindən sonra bu istiqamətdə də irəliləyiş imkanları artıb. Ötən il noyabrın 30-da Azərbaycan-Ermənistan sərhədində iki ölkənin dövlət sərhədinin delimitasiyası komissiyalarının beşinci görüşündə bu məsələnin müzakirəsi davam etdirilib, bir sıra təşkilati və prosedur məsələlər nəzərdən keçirilib. Görüşdə həmçinin komissiyalar arasında iclasların və birgə işçi görüşlərin təşkili və keçirilməsi reqlamentinin mətni ilkin olaraq razılaşdırılıb. Eləcə də tərəflər komissiyaların görüşlərinin keçirilməsinin intensivləşdirilməsinə dair razılığa gəliblər.

Bütün bunlar sərhədlərin delimitasiyası istiqamətində ikitərəfli formatda əldə olunan razılaşmalardır və prosesin müsbət əlaməti kimi qiymətləndirilir. Eyni zamanda bu məsələyə yanaşmada Azərbaycanın mövqeyi ondan ibarətdir ki, sülh sazişi sərhədin delimitasiyasından asılı olmamalıdır. "Sərhədin delimitasiyası texniki və vaxt aparan uzun prosesdir, sülh sazişi isə çətin deyil və sadəcə olaraq, dövlətlərarası münasibətlərdə beynəlxalq hüququn norma və prinsiplərinin qarşılıqlı şəkildə qəbul olunmasına əsaslanır. Fikrimizcə, sülh sazişi sərhədin delimitasiyasından asılı olmamalıdır", - deyə Azərbaycan Prezidentinin köməkçisi Hikmət Hacıyev vurğulayıb.

Bütövlükdə, Azərbaycanla Ermənistan arasında sülh sazişinin imzalanması üçün şanslar artıb. Hikmət Hacıyevin qeyd etdiyi kimi, bu gün sülh sazişinin mətni üzərində iş birbaşa olaraq Bakı ilə İrəvan arasında aparılır. Məhz Azərbaycanın təşəbbüsləri sülh prosesinin sürətlənməsinə təkan verir. O da reallıqdır ki, ərazi bütövlüyünü tam təmin edən Azərbaycan qalib ölkə kimi sülh olmadığı şəraitdə belə öz hədəflərinə doğru addımlayır, regionda yeni kommunikasiyalar yaradır. Bu mənada sülhün olmaması yalnız Ermənistanın ziyanınadır.

*Rəşad CƏFƏRLİ,*
*"Azərbaycan"*

# YAP Mərkəzi Aparatında Mübariz Qurbanlının 70 illik yubileyi münasibətilə görüş keçirilib

Yanvarın 8-də Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatında YAP İdarə Heyətinin üzvü, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlının 70 illik yubileyi münasibətilə görüş keçirilib.



YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov yubilyarı doğum günü münasibətilə təbrik edərək ona möhkəm cansağlığı, ictimai-siyasi fəaliyyətində yeni-yeni uğurlar arzulayıb.

Tahir Budaqov bildirib ki, partiya həyatında və dövlət qulluğunda uzun illər səmərəli fəaliyyət göstərən Mübariz Qurbanlı hər zaman fəal mövqeyi ilə seçilib. O diqqətə çatdırıb ki, Mübariz Qurbanlı 1999-cu ildən bu günədək Yeni Azərbaycan Partiyasının İdarə Heyətinin üzvü, 1999-2021-ci illərdə partiyanın İcra katibinin müavini, I, II, III və IV çağırış Azərbaycan Respublikası Milli Məclisinin deputatı kimi üzərinə düşən vəzifələri layiqincə yerinə yetirib. Bu gün isə Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri və YAP İdarə Heyətinin üzvü kimi fəaliyyətini müvəffəqiyyətlə davam etdirir: "Sizin milli-mənəvi dəyərlərin və dövlətçilik maraqlarının qorunmasına xidmət edən fəaliyyətiniz hər zaman yüksək qiymətləndirilib. Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə 2014-cü ildə "Şöhrət", bu günlərdə isə 2-ci dərəcəli "Vətənə xidmətə görə" ordenləri ilə təltif edilməyiniz əməyinizə verilən yüksək dəyərin bariz nümunəsidir".

Göstərilən diqqətə və ünvanına söylənilən xoş sözlərə görə təşəkkürünü bildirən Mübariz Qurbanlı Ümummilli Lider Heydər Əliyevin əbədiyaşar ideyalarının, Prezident İlham Əliyevin məqsədyönlü siyasətinin və Yeni Azərbaycan Partiyasının uğurlu fəaliyyətinin Azərbaycana möhtəşəm nailiyyətlər qazandırdığını, ölkəmizin tərəqqi və Zəfər zirvəsinə yüksəldiyini bildirib. Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevə əməyinə verilən yüksək qiymətə görə dərin minnətdarlığını ifadə edən Mübariz Qurbanlı bundan sonra da üzərinə düşən vəzifələri layiqincə yerinə yetirmək üçün səy və bacarığını əsirgəməyəcəyini deyib.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

# COP nədir və COP29-a evsahibliyi Azərbaycana nə verəcək?




BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası, yəni COP29 bu il Azərbaycanda keçiriləcək. Bununla bağlı qərar COP28-in ötən il dekabrın 11-də Dubayda keçirilmiş plenar iclasında qəbul olunub.

Azərbaycan indiyədək bir çox beynəlxalq tədbirlərə evsahibliyi edib və onların öhdəsindən layiqincə gəlib. Lakin Prezident İlham Əliyevin də dediyi kimi, COP29 bu vaxta qədər keçirilmiş tədbirlərlə müqayisəyə gəlmir. Bakı iki həftə dünyanın mərkəzi olacaq və şəhər təqribən 70-80 min xarici qonağı qarşılayacaq.

### COP nədir?

BMT İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyası insanın iqlim sisteminə təhlükəli müdaxiləsinin qarşısını almaq məqsədilə 1992-ci ilin iyununda Rio-de-Janeyro şəhərində keçirilmiş Yer Sammitində imzalanmış sazişdir. COP (Conference of Parties) abreviaturunun ingilis dilindən tərcüməsi Tərəflər Konfransı deməkdir. Tərəflər Konfransı İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının icrasına nəzarət edən ali qərarverici orqandır. Burada tərəflər Konvensiyaya üzv olan 198 ölkədir. Əgər tərəflərin fərqli qərarı olmazsa, COP hər il keçirilir. COP-un ilk tədbiri 1995-ci ilin martında Berlində baş tutub, katibliyi Bonn şəhərində yerləşir. COP-a sədrlik rotasiya əsasında BMT-nin 5 regionunun - Afrika, Asiya, Latın Amerikası, Karib Hövzəsi və Avropa (Mərkəzi, Şərqi, Qərbi və digər) ölkələrinə keçir. Həmçinin bu regionlardakı qrup ölkələri arasında da sədrliklə bağlı növbələşmə mövcuddur. Azərbaycanın təşkilata sədrliyinə dair qərar da məhz Şərqi Avropa Qrupu ölkələrinin yekdil rəyi əsasında verilib. Qeyd etmək yerinə düşər ki, COP29-a evsahibliyi üçün Azərbaycanla yanaşı, Ermənistan və Bolqarıstan da namizədliklərini irəli sürmüşdülər. Azərbaycan Respublikası Prezidentinin Administrasiyası və Ermənistan Baş nazirinin Aparatı arasında aparılmış birbaşa danışıqlar nəticəsində ötən il dekabrın 7-də verilmiş birgə bəyanatda elan olunub ki, Ermənistan Azərbaycanın xeyrinə öz namizədliyini geri götürüb. Bundan sonra Bolqarıstan da öz namizədliyi ilə bağlı eyni addımı atıb.

### Azərbaycan və "yaşıl iqtisadiyyat"

COP29 konfransına evsahibliyini Azərbaycan üçün 2024-cü ilin ən mühüm hadisəsi və ölkənin "yaşıl iqtisadiyyat"a keçid strategiyasının məntiqi davamı kimi qiymətləndirmək olar. Bu missiyaya uyğun olaraq Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə 2024-cü il Azərbaycanda "Yaşıl dünya naminə həmrəylik ili" elan edilib.

"Azərbaycan neft-qaz ölkəsi kimi bu sahədə də özünü göstərəcəkdir və dünyada hər kəs bir daha görəcək ki, bizim gündəliyimiz "yaşıl enerji" ilə bağlıdır. "Yaşıl enerji" növlərinin yaradılması və "yaşıl enerji"nin dünya bazarlarına nəqli hazırda bizim enerji siyasətimizin prioritetidir. Bu, reallıqdır və bütün dünya bunu bir daha görəcək", - deyə Prezident İlham Əliyev ötən il dekabrın 15-də COP29-un ölkəmizdə keçirilməsi ilə əlaqədar müşavirədə vurğulayıb.

Azərbaycan "yaşıl enerji" iqtisadiyyatına verdiyi önəmi əməli fəaliyyətlərlə də sübut edir. Buna misal olaraq, Azərbaycan 1990-cı illə müqayisədə 2030-cu ilə qədər istixana qazlarının miqdarının 35 faiz, 2050-ci ilə qədər isə 40 faiz azaldılmasını hədəfləyib.

Azərbaycan bərpaolunan enerji mənbələri üzrə yüksək potensiala malik olan ölkələrdəndir. Energetika Nazirliyinin məlumatına əsasən, ölkəmizin bərpaolunan enerji mənbələrinin texniki potensialı quruda 135, dənizdə 157 qiqavatdır. Bərpaolunan enerji mənbələrinin iqtisadi potensialı 27 qiqavat, o cümlədən külək enerjisi üzrə 3 min meqavat, günəş enerjisi üzrə 23 min meqavat, bioenerji potensialı 380 meqavatdır. Dağ çaylarının potensialı 520 meqavat həcmində qiymətləndirilir.

Prezident İlham Əliyevin 2021-ci ilin 2 fevral tarixli sərəncamı ilə təsdiqlənmiş "Azərbaycan 2030: sosial-iqtisadi inkişafın Milli Prioritetləri" əsasında ölkədə bərpaolunan enerji istehsalı siyasətinin strateji təməli qoyulub. Sənəddə qeyd olunmuş 5 Milli Prioritetdən biri "təmiz ətraf mühit" və "yaşıl artım"la bağlıdır. Bu isə yaşıl iqtisadiyyata keçidlə bağlı qarşıya yeni hədəflər qoyur. Bu prioritetlər qəbul edilənə qədər 2020-ci il yanvarın 9-da Azərbaycanın Energetika Nazirliyi ilə Səudiyyə Ərəbistanı Krallığının "ACWA Power" və Birləşmiş Ərəb Əmirliklərinin "Masdar" şirkətləri arasında bərpaolunan enerji üzrə pilot layihələrin həyata keçirilməsi ilə bağlı imzalanmış müqavilə əsasında 2022-ci il yanvarın 13-də "ACWA Power" şirkəti ilə "Xızı-Abşeron" Külək-Elektrik Stansiyasının "Gülüstan" sarayında təməlqoyma mərasimi keçirilib. 2022-ci il martın 15-də isə Bakıda "Qaradağ" Günəş-Elektrik Stansiyasının təməlqoyma mərasimi çərçivəsində "Masdar" şirkəti ilə dörd anlaşma memorandumu imzalanıb.

Həmçinin 2022-ci il dekabrın 15-də Azərbaycanın Energetika Nazirliyi və Avstraliyanın "Fortescue Future Industries" (FFI) şirkəti arasında ölkəmizdə bərpaolunan enerji layihələri və "yaşıl hidrogen"in potensialının öyrənilməsi və inkişafı üzrə birgə əməkdaşlığa dair Çərçivə Müqaviləsi imzalanıb. Müqavilə Azərbaycanda bərpaolunan enerji və "yaşıl hidrogen"in istehsalı üzrə ümumi gücü 12 qiqavatadək layihələrin araşdırılmasını və reallaşdırılmasını nəzərdə tutur. Beləliklə, Azərbaycan üç əsas enerji şirkəti ilə anlaşma memorandumu və müvafiq müqavilələr imzalayıb. Onlara uyğun olaraq həm quruda, həm də dənizdə 25 qiqavat bərpaolunan günəş və külək enerjisi istehsal ediləcək. Bu həcmin təqribən 12 qiqavatı FFI şirkəti, təqribən 10 qiqavatı "Masdar" şirkəti, bir hissəsi isə "ACWA Power" şirkəti tərəfindən istehsal olunacaq.

Ötən il fevralın 3-də Bakıda keçirilən ənənəvi "Cənub qaz dəhlizi" Məşvərət Şurası çərçivəsində nazirlərin 9-cu iclası ilə yanaşı, ilk dəfə Yaşıl Enerji Məşvərət Şurası çərçivəsində nazirlərin 1-ci iclası baş tutub. Bu iclas Azərbaycanın bərpaolunan enerji istehsalı məsələsinə nə dərəcədə önəm verdiyini göstərir.

Bununla yanaşı, Azərbaycan Respublikasının Prezidenti ölkəmizin işğaldan azad edilmiş torpaqlarını "Yaşıl enerji" zonası elan edib və 2022-2026-cı illər üzrə tədbirlər planı təsdiqlənib. Bu ərazilərin 2050-ci ilədək "Netto sıfır emissiya" zonasına çevrilməsi nəzərdə tutulur.

### Qərar lokal antiterror tədbirlərindən iki ay yarım sonra verilib

COP iqlim dəyişikliyi ilə mübarizədə çox vacib və dünyanın ən əhəmiyyətli tədbirlərindən biridir. Azərbaycanın bu tədbirə Şərqi Avropa Qrupu ölkələri arasından yekdil qərarla ev sahibi seçilməsi ölkəmizə yüksək etimadın göstəricisidir. Azərbaycan artıq beynəlxalq tədbirlərə evsahibliyi etmək sahəsində özünə yetərincə müsbət imic qazanıb. Tədbirin Azərbaycanda keçirilməsi ilə bağlı qərar həm də ona görə əhəmiyyətlidir ki, bu, Azərbaycanın lokal antiterror tədbirlərindən iki ay yarım sonra verilib. Bu isə dünya ictimaiyyətinin Azərbaycanın atdığı addımlara dəstəyindən xəbər verir. Bu tədbir Azərbaycanın neft-qaz ölkəsi olmaqla yanaşı, "yaşıl iqtisadiyyat"ı nə dərəcədə prioritet sahə kimi gördüyünü bütün dünyaya sübut edəcək. Tədbirin Bakıda keçirilməsi Azərbaycanın nüfuzunun daha da artmasına və ölkə reallıqlarının dünya ictimaiyyətinə birbaşa və asan çatdırılmasına böyük təkan verəcək.

## MƏRKƏZİ SEÇKİ KOMİSSİYASINDA



# Seçki mübahisələrinin məhkəmə qaydasında həlli mövzusunda seminar-müşavirələrə başlanılıb

Mərkəzi Seçki Komissiyasının maarifləndirmə proqramına uyğun olaraq yanvarın 8-dən etibarən tədbirlərə - Ali Məhkəmə və apellyasiya məhkəmələri ilə birgə layihə çərçivəsində seçki mübahisələrinin məhkəmə qaydasında həllinə həsr olunan regional seminar-müşavirələrə start verilib.



AZƏRTAC xəbər verir ki, 2024-cü il fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkiləri ilə əlaqədar Mərkəzi Seçki Komissiyası fərqli statuslu seçki iştirakçıları üçün müxtəlif istiqamətlər üzrə genişmiqyaslı maarifləndirmə layihələrini davam etdirir. Bununla əlaqədar Bakıda keçirilən tədbir Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahovla Ali Məhkəmənin və Məhkəmə-Hüquq Şurasının sədri İnam Kərimovun giriş nitqləri ilə başlayıb.

Sonra gündəliyə uyğun olaraq Mərkəzi Seçki Komissiyası, Ali Məhkəmə və Bakı Apellyasiya Məhkəməsinin məsul vəzifəli şəxsləri Azərbaycan Respublikası Prezidenti seçkilərində vətəndaşların seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin seçki komissiyalarına verilməsi və onların araşdırılması qaydaları, seçki hüquqlarının müdafiəsi ilə bağlı qanunvericiliyin məhkəmələr tərəfindən tətbiqi təcrübəsi və məhkəmədə seçki hüquqlarının müdafiəsi ilə bağlı işlər üzrə icraat barədə təqdimatlarla çıxış ediblər.

Mərkəzi Seçki Komissiyasının üzvləri və katibliyin aidiyyəti struktur bölmələrinin əməkdaşları, region üzrə apellyasiya məhkəmələrinin hakimləri və dairə seçki komissiyaları sədrlərinin iştirak etdiyi seminar-müşavirənin sonunda seçki mübahisələrinin məhkəmə qaydasında həllinə dair müxtəlif mövzular ətrafında müzakirələr aparılıb və iştirakçıları maraqlandıran suallar cavablandırılıb.

Qeyd etmək lazımdır ki, sözügedən layihənin reallaşdırılmasında başlıca məqsəd qarşıdan gələn seçkilərin yüksək səviyyədə təşkil olunub azad, ədalətli və şəffaf keçirilməsi yönündə görülən bütün işlərlə yanaşı, seçki mübahisələrinin həlli ilə bağlı dairə seçki komissiyalarının bilik, bacarıq və məlumatlılıq səviyyəsinin yüksəldilməsi, bu istiqamətdə atılan addımların səmərəliliyinin artırılması, eləcə də vətəndaşların seçki hüquqlarının daha effektiv təmin olunmasıdır.

Seçki mübahisələrinin məhkəmə qaydasında həllinə həsr olunan seminar-müşavirələrin növbəti mərhələsinin yanvarın 10-da Gəncə, Naxçıvan, Şəki və Şirvanda regionlar üzrə müvafiq məhkəmə orqanları və seçki dairələrinin dairə seçki komissiyalarını əhatə etməklə keçirilməsi nəzərdə tutulur.

## *Məzahir PƏNAHOV:* "Bu günə qədər 17 nəfərin prezidentliyə namizədliyinin irəli sürülməsi təsdiqlənib"



AZƏRTAC xəbər verir ki, bunu Mərkəzi Seçki Komissiyasının (MSK) sədri Məzahir Pənahov jurnalistlərə açıqlamasında deyib.

MSK sədri bildirib ki, təsdiqlənmiş namizədlərdən 7-si imza vərəqələrini MSK-ya qaytarıb.

Həmin şəxslərdən 3-nün prezidentliyə namizədliyi artıq qeydə alınıb. Dörd nəfərin təqdim etdiyi sənədlər yoxlanılıb başa çatdırıldıqdan sonra onların qeydə alınma məsələlərini də gündəliyə çıxaracağıq.

***

İşğaldan azad edilmiş ərazilərdə bizim məntəqələrimiz artıq qurulub. Həmin ərazilərdəki məntəqələrimiz digər bölgələrdəki məntəqələrimizə nümunə ola bilər. Çünki həmin bölgələrdə intensiv tikinti-quraşdırma işləri aparılır.

Bu sözləri Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahov jurnalistlərə açıqlamasında deyib. Məzahir Pənahov bildirib ki, Mərkəzi Seçki Komissiyası həmin məntəqələri təchiz etməklə məşğuldur.

"Proses bu gün başa çatacaq və həmin məntəqələr səsverməyə tam hazır olacaq", - deyə MSK sədri vurğulayıb.

## Prezident seçkiləri ilə bağlı "ASAN xidmət" mərkəzlərində yeni layihə



Fevralın 7-də ölkəmizdə keçiriləcək növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərində iştirakla bağlı "ASAN xidmət" mərkəzlərində innovativ həll təmin edilib.

AZƏRTAC xəbər verir ki, mərkəzlərdə olan "ASAN növbə" terminallarına "Seçici statusunu yoxla" adlı funksional bölmə əlavə edilib. Vətəndaşlar şəxsiyyət vəsiqələrini qeyd olunan yerdə oxudaraq adlarını seçici siyahısında yoxlaya və hansı seçki məntəqəsində səs verməli olduqlarını öyrənə bilərlər.

Həmçinin qeydiyyat üzrə seçki dairəsi və məntəqəsi, səs veriləcək seçki məntəqəsinin ünvanı haqqında məlumatları əldə etmək mümkündür. Əgər məlumatlar sistemdə əks olunmazsa, açılmış ekranda əlaqə məlumatlarını yazmaqla Mərkəzi Seçki Komissiyasına müraciət etmək imkanı da yaradılıb. Həmin innovativ həll Mərkəzi Seçki Komissiyası və "ASAN xidmət"in birgə layihəsi çərçivəsində reallaşdırılıb.

Gün ərzində "ASAN xidmət"ə 40 minə yaxın vətəndaş müraciəti daxil olur və vətəndaşlarımız növbə götürərkən eyni vaxtda bu sistemdən istifadə etməklə harada səs verməli olduqlarını operativ şəkildə dəqiqləşdirə bilərlər.

## "ASAN xidmət" seçicilərin yaxınlaşıb öz məlumatlarını yoxlaması üçün bir məkana çevriləcək

"Artıq "ASAN xidmət" mərkəzlərində seçicilərin adlarını seçici siyahılarında yoxlaması üçün yeni bir imkan təqdim olunur. Mərkəzi Seçki Komissiyası ilə "ASAN xidmət"in birgə layihəsi olan innovativ həll bir neçə gündür fəaliyyət göstərir. Adlarını həmin sistemdə yoxlayan seçicilər bununla bağlı bizə məlumat verirlər. Biz də sistemin bu qədər sərbəst, səlis, hətta mükəmməl olmasının canlı şahidi olduq. Ümid edirəm ki, vətəndaşların müxtəlif xidmətlər aldığı "ASAN xidmət" seçicilərin yaxınlaşıb öz məlumatlarını yoxlaması üçün bir məkana çevriləcək".



AZƏRTAC xəbər verir ki, bunu MSK-nın sədr müavini Rövzət Qasımov jurnalistlərə açıqlamasında deyib.

MSK-nın hər zaman informasiya-kommunikasiya texnologiyalarının mütərəqqi innovativ imkanlarından bəhrələnməyə çalışdığını deyən R.Qasımov bildirib: "Belə imkanlar baxımından "ASAN xidmət" nəinki Azərbaycanda, eyni zamanda bütün dünyada öz dəstxətti ilə seçilən qurumdur. Biz də "ASAN xidmət" imkanlarından, mütərəqqi innovasiyalardan istifadə etməyə çalışdıq. İndiyədək "ASAN xidmət"lə müxtəlif layihələr çərçivəsində bir araya gəlmişik, bundan sonra da müxtəlif layihələrdə yaxından əməkdaşlıq edəcəyik".

R.Qasımovun sözlərinə görə, seçicilərə öz adlarını seçici siyahısında yoxlamaq üçün təqdim edilən digər ənənəvi məkanlar da var: "Seçicilər eyni zamanda dairə və məntəqə seçki komissiyalarına baş çəkə, MSK-nın Qaynar xəttinə, internet səhifəsinə müraciət edə bilərlər. Səsvermə gününə 25 gün qalmışadək seçicilər bütün vasitələrdən istifadə etməklə öz məlumatlarını yoxlaya bilərlər. Onları bütün bu imkanlardan yararlanmağa dəvət edirəm".

## Medianın İnkişafı Agentliyi və Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti birgə açıqlama yayıblar

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi və Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti birgə açıqlama yayıb.

AZƏRTAC xəbər verir ki, açıqlamada deyilir: "Bir sıra sosial şəbəkə seqmentlərində Azərbaycan Respublikası Prezidenti seçkilərində namizədlikləri qeydə alınmış şəxslərlə bağlı saxta hesablar yaradılır və onların adından həqiqətə uyğun olmayan məlumatlar yayılır.

Seçkilər ərəfəsində bu tipli fəaliyyət məqsədyönlü şəkildə ictimai rəyi çaşdırmağa, namizədlərin reputasiyasını ləkələməyə yönəlmiş addımdır. İctimaiyyəti belə yalan və təxribat xarakterli paylaşımlara inanmamağa, yalnız prezidentliyə namizədliyi qeydə alınmış şəxslərin rəsmi açıqlamalarını və onların sosial media hesablarında yerləşdirilmiş məlumatları əsas götürməyə çağırırıq. Azərbaycan vətəndaşlarını, jurnalistləri, ictimai fəalları bu kimi hallara qarşı hər zaman prinsipiallıq nümayiş etdirməyə, saxta və yalan məlumatlara söykənən kampaniyaların təsirinə düşməmək üçün sayıq olmağa səsləyirik.

Qeyd olunan saxta hesabların mənbəyi barədə müvafiq tədbirlərin görülməsi təmin edilməkdədir".












# MÜƏLLİFİ İLHAM ƏLİYEVDİR





*Əvvəli 1-ci səh.*

# "İlham Əliyevə ömür boyu minnətdarıq"

## Talış kəndində yeni həyata başlayan keçmiş məcburi köçkünlər dövlət başçısına alqış edirlər

Talış kəndinin köhnə və yeni sakinləri böyük sevinc içərisindədirlər. Bunu kənddə söhbət etdiyimiz böyükdən-kiçiyə, hər kəsin səmimi fikirlərindən hiss etmək mümkündür. Keçmiş məcburi köçkünlər daha heç bir təhlükə görmürlər. Çünki Müzəffər Sərkərdəmiz İlham Əliyev illərlə Qarabağda xof, mif yaradan erməni separatizminin kökünü birdəfəlik kəsib. Bunu, elinə-obasına qayıdan hər bir soydaşımız yaxşı bilir və buna görə də hər gün İlham Əliyevə, onun qüdrətli ordusuna alqış edir. Bu yurdları qanları ilə yoğurub müqəddəsləşdirən şəhidlərimizə Allahdan rəhmət diləyir, qazilərimizə şəfa, cansağlığı arzulayır.

### "İndi biz də cənnətin sakinləriyik"

Allasovlar ailəsinin maraqlı və səmimi fikirlərini, xoş təəssüratlarını eşitdikdən sonra sağollaşıb küçəyə çıxırıq. Maşınımızın yanına tərəf yol alarkən bir mənzildən gələn səs bizdə maraq doğurdu:

- Eloğlu, gedirsiniz?
- İstəyirik gedək, hava artıq qaralır, Bakıya qayıtmalıyıq.
- Niyə bizə qonaq gəlmirsiniz? Evimiz həmişə qonaq-qaralı olub. Gəlin bir çayımızı için.

Bizi evinə qonaq dəvət edən 3 övlad atası Anar Camalov idi. Beynəlxalq Avrasiya Mətbuat Fondunda çalışır. Kiçik övladı Zəhra bu il dünyaya göz açıb. Yəni balaca Zəhra qızımız böyük Zəfərin övladı hesab olunur.

Anar deyir ki, özünü dünyanın ən xoşbəxt bəndəsi hesab etməkdə haqlıdır: "Qarabağa azadlıq, xalqımıza Zəfər, yurdumuza həyat verən Müzəffər Ali Baş Komandan və Mehriban xanım Əliyeva mənim evimin qonağı olublar. Azərbaycan tarixinin ən şanlı səhifəsini yazan, xalqımızın sevgisini qazanmış insanları öz evində qarşılamağın bir ayrı gözəlliyi var.

Səmimi deyim ki, çox insanlar görmüşəm, amma bu sadəlikdə, bu səmimiyyətdə nəinki Prezident, heç adi məmur belə görməmişəm. Mənimlə illərin dostu, ən yaxın qohumum, doğma qardaşım, atam kimi söhbət etdi. Cənab Prezidentlə təmasda olandan sonra vətən, torpaq uğrunda ölümə gedən əsgərlərimizi, qəhrəmanlarımızı başa düşdüm. Anladım ki, belə bir komandanın əmrini icra etmək də şərəfdir.

Prezidentimiz və Mehriban xanım ən kiçik problemimizlə də maraqlandılar. Bizim bir dərdimiz vardı, o da Vətən dərdi, torpaq həsrəti idi. Onu da Müzəffər Ali Baş Komandanımız, Prezidentimiz həll etdi. Çox şükür, artıq hər şey arxada qalıb. Biz indi öz evimizdə, isti ocağımızın başında oturub, xoşbəxt, qayğısız yaşayırıq. Nə vaxtsa belə, bir evimizin olacağını heç xəyalımızdan belə keçirmirdik. Hər dəfə evimizin qapısını açıb içəri girəndə bu genişlikdə, bu gözəllikdə yaşayış yerimizin olduğuna özüm şübhə edirəm. Allah Prezidentimizi qorusun ki, həm torpaqlarımızı azad edib bizi xəcalətdən qurtardı, həm də bizi ev sahibi etdi".




**"Allah İlham Əliyevin bu yaxşılığını övladlarının, nəvələrinin qarşısına çıxarsın. O, bizim arzularımızı çin etdi. Mehriban xanımla birlikdə kəndimizə gəlmişdilər. Ay Allah, insan necə də sadə, səmimi, hər kəslə mehriban ola bilər".**

Anarın həyat yoldaşı Türkan Camalova söhbətə qoşulur. "Siz bizim sevincimizi bəlkə də təsəvvür edə bilməzsiniz. Torpaqlarımızın azad olunmasının, Qarabağın işğalçılardan təmizlənməsinin sevincini, qürurunu yaşayırdıq. Heç ağlımıza gəlmirdi ki, bu tezlikdə doğma yurdumuzda evimiz olacaq. Övladlarımız öz kəndimizdə məktəbə gedəcək... Bizim də köçkünlük həyatımız bitəcək. Bir gözəlliyə baxın, bura heç kənd də demək olmaz. Belə məkanların yalnız xarici ölkələrdə olduğunu eşitmişdik. İndi özümüz bu cənnətin sakinləriyik. Həm də ona görə qürurluyuq ki, Qarabağın xilaskarı, sevimli Prezidentimiz öz əli ilə bu evin açarlarını bizə verib, həm də qonağımız olub. İnanclara görə, dövlət başçısını hətta yuxuda görən adam xoşbəxt bir həyata qovuşar. Biz isə Prezidentimizi nəinki yuxuda, öz evimizdə görmüşük. Bəlkə də onun nəticəsidir ki, evimiz ruzili, bərəkətlidir, özümüz isə çox xoşbəxtik. Prezidentimizlə fəxr edirik. Övladlarımız da, özümüz də bir ömür dövlətimizin başçısına duaçıyıq. Yusiflə Tuncay Talış kəndində orta təhsil alacaqlar. Sevinirlər, yeni kənd, yeni ev, yeni məktəb. Hər şey təzədən, yenidən başlayır onlar üçün..."

Onlar evlərində quraşdırılmış şam ağacının işıqlarını göstərib deyirlər ki, bizim yolkamızın işığı ən gözəlindəndir. Evimizin də işığı ən gur işıqdır.

Tuncay deyir ki, məktəbə gedəndə dərslərimi əla oxuyacam, general olacam. Vətənimizi qoruyacam.

Zəhradan başqa gənc ailənin bütün üzvlərini dinlədik. Könlümüz daha da fərəhləndi. İndi gör, bu xoşbəxtliyi yaşayan ailələr necə sevinirlər...

Camalovlar ailəsinə yeni mənzillərində xeyirli işlər, toy-büsat arzulayıb sağollaşdıq.

Kəndin gecə həyatını seyr edəedə zövq alırıq. Talış kəndinin axşamları bir başqadır. Bədirlənmiş ay Talış kəndinin başının üstündə dayanıb tonqal kimi işıq saçırdı. Vaxtı ilə düşmən tapdağında qaranlığa bürünmüş kənd, indi əlvan işıqları ilə göz qamaşdırır.

Elə bu xoş təəssüratlar altında işlərimizi yekunlaşdırıb Bakıya dönürük.

### "Biz qurub-yaradan xalqıq"

Qarabağdan budəfəki reportajlarımızı Talış kəndinin yeni sakinlərinə və bu yurdun fərəh doğuran həyatına həsr etdik.

İndi sakinlərini ağuşuna alan Talış kəndində firavan həyat başlayıb. Bütün bu işlərə 2021-ci ildən başlanılıb. Bu il Müzəffər Ali Baş Komandan İlham Əliyev Novruz tonqalını məhz Talışda alovlandırıb və bayramı kəndin sakinləri ilə birlikdə qeyd edib. Bu, işğaldan azad edilmiş torpaqlarımızda alovlanan 3-cü Novruz tonqalı idi. Bundan öncə Prezident İlham Əliyev işğaldan azad edilmiş ərazilərdə ilk Novruz tonqalını Şuşada Cıdır düzündə, 2022-ci ildə Suqovuşan qəsəbəsində alovlandırmışdı.

Talış kəndində Novruz tonqalının yanında Azərbaycan xalqına müraciət edən İlham Əliyev dedi ki, bu kəndin yenidən qurulmasına başlanmasından hələ bir il keçməyib. Artıq buraya 20 ailə qayıdıb və qarşıdakı zamanlarda 180-ə yaxın ailə qayıdacaq: "Bu ailələr üçün bütün imkanlar yaradılıb. İndi hər kəs görə bilər nə gözəl evlər, məktəb, uşaq bağçası, ictimai binalar tikilib, məşğulluq üçün şərait yaradılıb. Biz qurub-yaradan xalqıq. Ermənistandan fərqli olaraq, biz öz ərazimizdə qurub-yaradırıq".




**"Qarabağa azadlıq, xalqımıza Zəfər, yurdumuza həyat verən Müzəffər Ali Baş Komandan və Mehriban xanım Əliyeva mənim evimin qonağı olublar. Azərbaycan tarixinin ən şanlı səhifəsini yazan, xalqımızın sevgisini qazanmış insanları öz evində qarşılamağın bir ayrı gözəlliyi var".**

### Yeni yollar, qaz xətti çəkilib, yeraltı su çənləri və nasosxana quraşdırılıb

Həqiqətən də, qısa müddətdə bu kənddə çox böyük işlər görülüb. Talışa qədəm qoyarkən tikinti-quruculuq işlərinin yüksək zövq və keyfiyyətlə aparılması və müasirlik diqqəti çəkir.

Talışın yüksək nöqtələrindən birində kəndin işğaldan azad olunduğu gün Ali Baş Komandan İlham Əliyev tərəfindən paylaşılan tvitin mətninin həkk olunduğu xatirə daşı yerləşdirilib. Burada sakinlərin asudə vaxtlarını səmərəli keçirmələri üçün istirahət guşəsi və seyrangah yaradılıb.

Görülən işlər çərçivəsində 20 ədəd fərdi ev və 20 tövlə bərpa edilərək yenidən qurulub. Evlərin 15-i üçotaqlı, 1-i ikiotaqlı, 4-ü dördotaqlıdır. Hər bir evin həyətyanı ərazisində əsaslı landşaft işləri yerinə yetirilib - dekorativ ağaclar, kollar, güllər əkilib, fərdi əkin sahələri ayrılıb. Hər bir ev üçün ümumi sahəsi 54 kvadratmetr olan fərdi təsərrüfat anbarları inşa edilib.

Evləri istiliklə təmin etmək üçün qazanxana tikilib və burada hər birinin gücü 350 min kkal/saat olan isitmə qazanları və digər bütün lazımi texniki avadanlıqlar quraşdırılıb. Hər bir ev qazla işləyən isitmə sistemi (kombi) ilə təmin olunub.

Talış kəndində 10 qeyri-yaşayış və ictimai iaşə obyekti bərpa olunub və tamamilə yenidən qurulub. Bu siyahıya inzibati bina, məktəb, Bayraq meydanı, klub-icma mərkəzi, uşaq bağçası, qazanxana, mağaza, aptek, tibb məntəqəsi, rabitə evi, ictimai-iaşə obyekti, istirahət guşəsi və istirahət mərkəzi daxildir.

Beləliklə, Talış kəndində 1-ci faza üzrə layihə tamamlanıb və ilkin olaraq 20 ailə məskunlaşdırılıb. Buraya qayıdan sakinlərin məşğulluğu təmin edilib. Vətəndaşlar inzibati binada, klub-icma mərkəzində, uşaq bağçasında, məktəbdə, aptekdə və digər obyektlərdə müxtəlif vəzifələrdə çalışırlar. Sakinlərə təsərrüfatlarını yaratmaq üçün iribuynuzlu heyvanlar da verilib.

İkimərtəbəli inzibati bina əsaslı şəkildə təmir edilib, qarşısındakı ərazidə kənd meydanının bərpası həyata keçirilib, yaşıllaşdırma işləri aparılıb. Binanın bütün kommunikasiya sistemləri yenidən qurulub.

78 şagird yerlik ikimərtəbəli məktəb binası maraqlı dizaynı ilə diqqət çəkir. Binanın kommunikasiya sistemləri yenidən qurulub. Birinci və ikinci mərtəbələrində sinif, tibb və müəllimlər otağı, mansardda isə akt zalı və kitabxana yerləşir. Məktəbin həyətyanı ərazisində süni ot örtüklü futbol meydançası yaradılıb.

Uşaq bağçasında da hər cür şərait yaradılıb. Binanın daxili hissəsi bütün lazımi texniki xidmət avadanlığı ilə təchiz olunub. Həyətyanı ərazidə uşaqlar üçün rezin örtüklü oyun meydançası və iki söhbətgah inşa olunub.

Ən maraqlısı isə kəndin yeni yollarıdır. Ümumi uzunluğu 4 kilometr olan kənddaxili yolların 800 metrlik hissəsi təbii daşlardan qurulub. Daxili yolların digər hissələrinin örtüyü isə asfalt-betondur. Bütün yolların sol və sağ tərəfindən səkilər və onlara paralel olaraq yaşıllıq zolaqları yaradılıb. Yolboyu yaşıllıq zolaqlarına dekorativ ağaclar və kollar əkilib. Kəndin xarici kommunikasiya sistemləri yenidən qurulub, mənzillərə yeni qaz xətti çəkilib, yeraltı su çənləri və nasosxana quraşdırılıb.

### Daha 158 ədəd yeni fərdi yaşayış evinin tikintisi nəzərdə tutulub

Kənddə bu gün də erməni quldur dəstələrinin "izləri" qalmaqdadır. Torpaqlarımızdan çıxıb qaçarkən basdırdıqları minalar burada tikinti-quruculuq işlərinin daha sürətlə aparılması üçün maneələr yaradır. Bu, erməni vandalizminin əyani təzahürüdür. Ona görə də hazırda kənddə minatəmizləmə əməliyyatları həyata keçirilir.

Qarabağ İqtisadi Rayonunda Bərpa, Tikinti və İdarəetmə Xidmətinin şöbə müdiri Leyla Sarabi deyir ki, Talış kəndinin layihələndirmə işlərinin (2-ci faza) çox hissəsi artıq tamamlanıb. İkinci fazada 8 ədəd mövcud fərdi yaşayış evinin bərpası və yenidən qurulması, 158 ədəd yeni fərdi yaşayış evinin layihələndirilməsi və tikintisi nəzərdə tutulub.

*Tezliklə burada daha böyük infrastrukturlar qurulacaq. Doğma sakinləri geri qayıdaraq Talışı daha da gözəlləşdirəcəklər. Burada həyat yenidən qaynayacaq və kəndin xoşbəxt həyatı başlayacaq.*

***Rəşad BAXŞƏLİYEV,***
***Elşən QƏNİYEV,***
***"Azərbaycan"***



















# MÜƏLLİFİ İLHAM ƏLİYEVDİR

# Bakının baş planı hazırdır




## Bəs paytaxtın yeni nəqliyyat sistemi necə formalaşacaq?

Son illərdə Bakıda əhalinin çoxalması, iqtisadi artım nəticəsində bir sıra sahələrdə yaranan problemlər paytaxtın baş planının olmaması ilə əlaqələndirilirdi. Xüsusən də yol infrastrukturu ilə bağlı məsələlər, şəxsi avtomobillərin artması, ictimai nəqliyyatda mobilliyin təminatının zəif olması ilə əlaqədar yollarda yaranan tıxaclar, avtomobil sıxlığı Bakı sakinlərini ən çox narahat edən məsələlər idi.






Buna görə də dövlət başçısının göstərişinə əsasən, aparıcı qlobal şəhərsalma prinsipləri nəzərə alınaraq şəhərin planlı və sistemli inkişafını təmin etmək məqsədilə Dövlət Şəhərsalma və Arxitektura Komitəsi tərəfindən Bakı şəhərinin baş planı hazırlandı və Nazirlər Kabineti tərəfindən təsdiq edildi.

Baş plan paytaxtın 212,3 min hektarlıq bütün inzibati ərazisini əhatə etməklə növbəti 20 il ərzində şəhərin əsas inkişaf prioritetlərini özündə əks etdirir.

Bakı şəhərinin əhalisinin 2040-cı ilə 3,17 milyon nəfər təşkil edəcəyi proqnozlaşdırılıb. Bu da əlavə çətinliklər yaradacaq. Odur ki, baş plan sonradan yaranan və yuxarıda sadaladığımız müəyyən problemlərin vaxtında həllini tapmasını şərtləndirir.

Şəhərin küçə-yol şəbəkəsinin genişləndirilməsi, ictimai nəqliyyatın təkmilləşdirilməsi, şaxələndirilməsi, metro nəqliyyat sisteminin inkişafı prioritetlər arasında yer alır. Bu hədəflərin reallaşması üçün baş planda nəqliyyat məsələləri öz əksini tapıb. Belə ki, hazırda paytaxtın küçə-yol şəbəkəsi əsasən radial-həlqəvi nəqliyyat marşrutları üzrə təşkil edilsə də, gələcəkdə onların diaqonal marşrutlara çevrilməsi ilə məntiqi tamamlandırılması prinsipi əsas götürülərək paytaxtın yeni nəqliyyat planlaşdırılma sxemi hazırlanıb.

### Xırdalan və "20 Yanvar" dairələrində tıxac problemi həll oluna bilər

2027-ci ilin sonunadək paytaxtın şimal giriş-çıxış nəqliyyat probleminin əsaslı həll edilməsi məqsədilə Bakı və Sumqayıt şəhərlərini birləşdirəcək yeni magistral avtomobil yolunun tikintisi planlaşdırılıb. Bundan başqa, "Xarici Dairəvi Yolu-Böyükşor-Ziya Bünyadov" həlqəvi marşrutunun, habelə "Lökbatan-Xocasən-Binəqədi-Böyükşor-Sabunçu" xarici həlqəvi yolunun, "Xırdalan-M1 avtomobil yolu-Digah-Zabrat-Hava Limanı" həlqəvi magistralın yaradılması nəzərdə tutulur.

Paytaxtın mərkəzi hissəsinin əlavə nəqliyyat yükündən qorunması məqsədilə isə "Mehdiabad-Dərnəgül-Ziya Bünyadov prospekti-Keşlə-Babək prospekti-"Ağ şəhər"-Nobel prospekti" yeni diaqonal nəqliyyat marşrutunun yaradılması da planlaşdırılır.

Paytaxt sakinlərinin ən çox tıxacda qaldığı, günün istənilən vaxtında avtomobil sıxlığının müşahidə olunduğu Xırdalan və "20 Yanvar" dairələri ilə bağlı da yeniliklər var. Belə ki,"Bakı-Sumqayıt" şosesində, Xırdalan və "20 Yanvar" dairələrində nəqliyyat sıxlığının qarşısının alınması məqsədilə paytaxtın strateji 2-ci şimal-qərb yeni giriş-çıxış yolunun yaradılması nəzərdə tutulur.

Baş planda bunlarla yanaşı, mövcud nəqliyyat tıxaclarının qarşısının alınması və paytaxtın küçə-yol şəbəkəsinin inkişaf etdirilməsi məqsədilə əlavə bir sıra zəruri tədbirlər də planlaşdırılır. Qeyd edilən tədbirlərin həyata keçirilməsi sayəsində 2040-cı ilədək Bakı şəhərində küçə-yol şəbəkəsinin ümumi uzunluğunun yerli əhəmiyyətli yollarla birlikdə 2668 kilometrə çatdırılması gözlənilir.

### 285 kilometr uzunluğunda velosiped zolaqları şəbəkəsi yaradılacaq

Son illərdə ekoloji təmiz şəhər naminə, atmosferin çirklənməsinin müəyyən qədər qarşısının alınması üçün, eyni zamanda insanların sağlamlıqları nəzərə alınaraq gündəlik istifadədə velosiped, e-skuter kimi nəqliyyat vasitələrindən istifadə edilməsi təşviq olunur. Bir çox Avropa ölkəsində uzun illərdir ki, velosiped zolaqları salınıb və bu, getdikcə inkişaf etdirilir. Eyni zamanda son illərdə geniş istifadə olunan skuterlər üçün bəzi ölkələrdə ayrıca zolaqlar yaradılır, bəzilərində isə həmin istifadəçilərin velosiped yollarında hərəkətinə icazə verilir.

Bakı şəhərinin baş planında da velosiped nəqliyyatının inkişafı və bu məqsədlə müvafiq infrastrukturun yaradılması planlaşdırılır. 2040-cı ilədək velosiped zolaqları şəbəkəsinin ümumi uzunluğunun təxminən 285 kilometr təşkil edəcəyi planda əksini tapıb.

Ekspertlər ictimai nəqliyyatın inkişafı ilə şəxsi minik avtomobillərindən istifadənin məhdudlaşdırılması fonunda paytaxtda tıxacların azalacağını qeyd edirlər. İctimai nəqliyyatın inkişafı və maneəsiz hərəkəti üçün isə avtobuslar üçün xüsusi xətlərin olması ən vacib məsələlərdən biridir. Baş plana əsasən, ictimai nəqliyyat vasitələri üçün xüsusi hərəkət zolaqlarının 2040-cı ilədək ümumi uzunluğunun hazırkı 16 zolaq-km-dən 112,2 zolaq-km-ə qədər genişləndirilməsi nəzərdə tutulur.

### Metro stansiyalarının sayı 46-ya çatdırılacaq

Həm sürət, həm də maneəsiz hərəkət baxımından yeraltı nəqliyyata üstünlük verən ölkələr çoxdur. Azərbaycanda da hər gün on minlərlə sərnişin metrodan istifadə edir. Bu gün Bakıda metropoliten xətlərinin uzunluğu 40,7 kilometrdir, 3 xətt üzrə stansiyaların sayı isə 27-dir. İctimai nəqliyyat sistemində aparıcı rola malik olan metro stansiyalarının sayının artırılması, paytaxtın müəyyən ərazilərinə xətlərin çəkilməsi qarşıda duran məsələlərdəndir.

Bu baxımdan metro nəqliyyatı sisteminin inkişafı ilə əlaqədar 2027-ci ilədək "28 May"-"Cəfər Cabbarlı" keçid stansiyasında yaşıl və qırmızı xətlərin bir-birindən ayrılması və yeni dəstəkləyici infrastrukturun yaradılması planlaşdırılır. Dairəvi metro şəbəkəsinin tamamlanması, bənövşəyi xətt üzrə mövcud xətlərin uzadılması ilə "Ağ şəhər" və "Port Baku" ərazisinin xidmətə çıxışının təmin edilməsi, perspektivdə Xırdalan şəhərinə metro xəttinin çəkilməsi də nəzərdə tutulur.

"28 May" stansiyası metro şəbəkəsinin mühüm əhəmiyyətə malik mərkəzi qovşağı olaraq qalmaqla, 2040-cı ilədək metro xətləri şəbəkəsinin ümumi uzunluğu 73,4 kilomterə, stansiyaların sayı isə 46-ya çatdırılacaq.

### Heydər Əliyev Hava Limanına yeni dəmir yolu xətti çəkiləcək

Dəmir yolu şəbəkəsinə gəlincə isə baş plana əsasən, 2027-ci ilin sonunadək Abşeron yarımadasında 20 sərnişin stansiyasının yenidən qurulması, aktivləşdirilməsi və ya inşası, o cümlədən Biləcəri stansiyası ilə Bakı Dəmir Yolu Vağzalı arasında "Şimal-Cənub" istiqamətindəki dəhliz boyu 4 yeni stansiyanın tikintisi nəzərdə tutulur.

Lökbatan qəsəbəsindən keçən dəmir yolu infrastrukturunun yenidən qurulması və sərnişin stansiyası kimi xidmət göstərməsi, Lökbatandan Bakı Dəmir Yolu Vağzalına müntəzəm şəhərətrafı dəmir yolu reyslərinin açılması da planlaşdırılır.

Bakıxanov stansiyasından Zirəyə doğru uzanan və Bülbülə, Əmircan, Suraxanı, Yeni Suraxanı, Binə, Qala, Dübəndi və Zirədə yenidən qurulacaq 8 stansiyadan ibarət xəttin bərpası, habelə "Qaradağ-Güzdək", "Zabrat-Maştağa-Zağulba" dəmir yolu dəhlizlərinin və Qaradağ rayonu ərazisində 2 yeni dayanacaq məntəqəsinin yaradılması qərara alınıb.

Bunlarla yanaşı, Heydər Əliyev adına Beynəlxalq Hava Limanına yeni dəmir yolunun çəkilməsi, aeroportdan Yeni Suraxanı və Binə qəsəbələrinə doğru uzanan yeni dəmir yolu xəttinin inşası, o cümlədən Hövsan dəmir yolu stansiyasının fəaliyyətinin bərpası, həmçinin yeni "Binəqədi-Mehdiabad-Fatmayi-Pirşağı" dəmir yolu dəhlizinin yaradılması planda əksini tapıb.

Beləliklə, Bakı şəhəri üzrə dəmiryol şəbəkəsinin ümumi uzunluğunun 195,4 km-dən 338,6 km-ə, stansiyaların sayının isə 26-dan 54-ə çatdırılması nəzərdə tutulur.

### "Tramvay-elektrik qatarı" sisteminin tətbiqi

Baş planda tramvay xətləri ilə bağlı məsələ də yer alıb. Qeyd olunub ki, hazırda şəhər ərazisində bir sıra istifadə olunmayan dəmiryol təhkim zolağı və istifadə olunmayan yük xətləri yenidən aktivləşdirilə və "tramvay-elektrik qatarı" sisteminin tətbiqində bu infrastruktur imkanlarından istifadə oluna bilər, həmçinin sürətli tramvay nəqliyyatı infrastrukturun genişlənməsi imkanı yarana bilər.

İctimai nəqliyyat sisteminin səmərəli fəaliyyətinin təmin edilməsi, o cümlədən artan tələbatın ödənilməsi, fərdi nəqliyyat vasitələrinin xüsusi çəkisinin azaldılması yalnız metro, metrobus, sürətli dəmir yolları və tramvay-elektrik qatarı sistemlərinin inteqrasiyası yolu ilə mümkün ola bilər. Buna baxmayaraq, gələcəkdə də fərdi minik avtomobillərinin nəqliyyat sistemində mühüm paya sahib olmasının davam edəcəyi proqnozlaşdırılır. Bu, eyni zamanda şəhərin küçə-yol şəbəkəsi sisteminin yenidən qurulmasını zəruri edir. Növbəti mərhələlərdə təkmilləşdirmə tədbirləri yalnız yolların genişləndirilməsi deyil, mövcud sistemlərdən səmərəli istifadəni də nəzərdə tutacaq.

Son illərdə əhalinin ən çox istifadə etdiyi taksi xidmətləri ilə bağlı məsələlər də baş planda əksini tapıb. Məlumata görə, taksi nəqliyyatının sərnişindaşımada payı azalacaq. Bunun isə bir sıra səbəbləri var: ictimai nəqliyyatın keyfiyyət və kəmiyyətinin əhəmiyyətli dərəcədə artması, ictimai nəqliyyatın taksi nəqliyyatından daha ucuz qiymətə xidmət göstərməsi, fərdi avtomobillərin sayının artması.

Gələcəkdə fərdi minik avtomobillərinin əhəmiyyətli dərəcədə artacağı da proqnozlaşdırılır. Bu da təbii ki, ictimai nəqliyyatın üzərinə nə qədər yükü götürəcəyindən asılı olaraq dəyişəcək. İctimai nəqliyyatın bölgüdə daha yüksək paya sahib olması üçün baş planda məhdudlaşdırıcı parklama siyasətinin, şəhərin mərkəzinə daxil olan avtomobillər üçün ödənişlərin tətbiqinin, nəqliyyat vasitələri üçün ayrılmış yolların məhdudlaşdırılması ilə şəhərdaxili magistralların konservativ inkişafı mütləqdir.

Ümumiyyətlə, Bakı şəhərinin baş planının təsdiqi bəzi qurumların paytaxtda müəyyən problemlərin həlli istiqamətində atılacaq addımlar, görüləcək işlərlə bağlı gətirdiyi bəhanələrə son qoyması baxımından da böyük əhəmiyyətə malikdir. Sənəddə problemlərin, narazılıqların həllinə yönəlik hədəflər müəyyənləşdirilib. Geriyə işlərin icrası qalır. Zaman aidiyyəti qurumların uzun illər baş planın yoxluğu ilə əlaqələndirdiyi problemlərin həlli istiqamətində hansı işlər görəcəyini göstərəcək.

Ümumilikdə "Küləklər şəhəri"nin yeni siması üçün atılacaq addımlar bütün Bakı sakinləri kimi bizim üçün də maraqlıdır.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

# Sənaye parkları flaqmanının 12 yaşı tamam oldu

## SKSP-nin davamçıları işğaldan azad edilmiş əraziləri seçirlər

Hazırda dünya iqtisadiyyatında sənaye parkları istehsal və xidmət sahəsində önəmli rol oynayır. Səbəb bu sahədə fəaliyyət göstərən sahibkarlara bir çox güzəştlərin edilməsidir. Başqa sözlə desək, investorlar yatırdıqları sərmayənin əvəzində tez bir zamanda gəlir əldə etmək istədiklərindən onların sənaye parklarına böyük maraqları var.

Azərbaycanda da qeyri-neft sektorunun inkişafı istiqamətində atılan mühüm addımlardan biri sənaye parklarının yaradılmasıdır. Və təbii ki, ölkəmizdə də bu sahəyə investisiya qoyan sahibkarlara bir çox güzəştlər olunur. Buna görə ötən qısa müddətdə 7 sənaye parkı, 5 sənaye məhəlləsi yaradılıb.

Ötən dövr ərzində sənaye zonalarında ümumilikdə 10,23 milyard manatlıq məhsul istehsal olunub ki, bunun da 3,35 milyard manatlığı ixraca yönəldilib. 2023-cü ilin birinci yarısında sənaye zonalarının ölkə sənayesinin qeyri-neft sektorunda xüsusi çəkisi 16,5, qeyri-neft sənaye məhsullarının ixracında isə 20,7 faiz olub. Sənaye zonalarında istehsal edilən məhsullar dünyanın 50-dən çox ölkəsinə ixrac edilib. Bu statistik rəqəmlər onu göstərir ki, ölkənin sənayeləşməsində və qeyri-neft sənayesinin inkişafında uğurlar az deyil. Prezident İlham Əliyevin apardığı real iqtisadi islahatlar isə ondan xəbər verir ki, bu uğurlar davamlı olacaq və Azərbaycan yaxın gələcəkdə qarşısına qoyduğu məqsədə çatacaq.




Keçən ilin sonunda ölkəmizdə ilk yaradılan Sumqayıt Kimya Sənaye Parkının (SKSP) fəaliyyətə başlamasının 12 ili tamam oldu. Bu sənaye parkı istehsal həcminə və məhsul satışına görə liderdir. Xatırladaq ki, Sumqayıt Kimya Sənaye Parkı Prezident İlham Əliyevin 2011-ci il 21 dekabr tarixli fərmanı ilə yaradılıb. Məqsəd ölkədə innovativ və yüksək texnologiyalar əsasında rəqabətqabiliyyətli sənaye istehsalının inkişafı üçün münbit şərait yaratmaq, bu sahədə sahibkarlığı dəstəkləmək, qeyri-neft sektorunun davamlı inkişafını təmin etmək və əhalinin istehsal sahəsində məşğulluğunu artırmaq olub.

Sənaye Parkı yaradılarkən 168 hektara yaxın ərazini əhatə edirdi. Hazırda isə parkın ərazisi 583,5 hektardır. İndiyədək sənaye parkına rezidentlər tərəfindən 5,4 milyard manatdan çox investisiya yatırılıb, burada 6600-dən çox insan daimi işlə təmin olunub. Parkın rezidentləri tərəfindən ümumilikdə 9,5 milyard manatlıq satış həyata keçirilib ki, onun da 3,3 milyard manatlıqdan çox hissəsi - təqribən 34,7 faizi ixracın payına düşür. Parkda istehsal olunan məhsullar dünyanın 60-dan çox ölkəsinə ixrac edilir.

Məlumdur ki, dövlət ölkənin hərtərəfli inkişafı və bölgələrdə yaşayan əhalinin işlə təmin olunmasına xüsusi əhəmiyyət verir. Mingəçevir Sənaye Parkının və 5 sənaye məhəlləsinin regionlarda yaradılması buna əyani sübutdur. Bölgələrdə yaradılan müəssisələrin müəyyən hissəsində yerli xammaldan istifadə olunması isə digər sahələrin inkişafını da təmin edir.

44 günlük müharibədə tarixi zəfərdən sonra işğaldan azad olunan ərazilərin potensialından istifadə etmək imkanı yaranmışdır. Bu, həm də doğma yurdlarına qayıdan insanların məşğulluğunun təmin edilməsi deməkdir. Həmin məqsədlə Ağdam Sənaye Parkından sonra "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkı da yaradılmışdır. Cari il burada yeni müəssisələrin fəaliyyətə başlaması planlaşdırlır. Sənaye parkında 2024-cü ildə fəaliyyətə başlayacaq 2 müəssisəyə ümumilikdə 11 milyon manatdan çox investisiya yatırılacaq. Müəssisələr fəaliyyətə başlayandan sonra onlarda 150-dək iş yerinin açılması nəzərdə tutulur.

Oktyabrda fəaliyyətə başlaması planlaşdırılan "İmprotex Qarabağ Sənaye Kompleksi" MMC parkın 5 hektar ərazisində minatəmizləyən, xüsusi təyinatlı texnika və metal məmulatların istehsalını həyata keçirəcək. Artıq müəssisənin qurulması istiqamətində işlərə başlanıb. Hazırda ərazidə planlama, qazma işləri görülür. İnvestisiya həcmi 7,4 milyon manat olan müəssisədə 124 nəfərin işlə təmin edilməsi gözlənilir. Onların istehsal etdikləri texnikalar işğaldan azad olunmuş ərazilərdə istifadə edilməklə yanaşı, ixracı da həyata keçiriləcək.

Bu il sənaye parkının ərazisində "Holcim Azerbaijan" ASC tərəfindən birinci mərhələdə həcmi 2 min ton olan sement terminalının istifadəyə verilməsi də planlaşdırılır. İkinci mərhələdə isə şirkət tərəfindən əmtəə beton və quru yapışdırıcı istehsalını həyata keçirəcək zavod inşa ediləcək. İnvestisiya dəyəri 3,4 milyon manat olan müəssisədə 20-dən çox insan daimi işlə təmin olunacaq. İstehsal ediləcək məhsulların daxili bazarda satışı həyata keçiriləcək.

Sənaye Parkında ilk dəfə olaraq "Holcim Azerbaijan" ASC tərəfindən geobrick kərpiclərdən istifadəyə başlanılıb. Hazırda şirkət tərəfindən inzibati binanın tikintisində bu kərpiclərdən istifadə edilir. Növbəti mərhələdə sözügedən kərpiclərdən işğaldan azad edilmiş ərazilərdə aparılan yenidənqurma işlərində geniş istifadə olunması nəzərdə tutulur.

*Rüstəm KAMAL,*
*"Azərbaycan"*

## Demokratiyanın iki üzü - ədalətin ikili standartı

# ABŞ-nin Beynəlxalq Din Azadlığı Komissiyasının Azərbaycanla bağlı təqdim etdiyi "nöqsanlar" reallıqla daban-dabana ziddir

**Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi ABŞ-nin Beynəlxalq Din Azadlığı Komissiyasının 2023-cü ildə Azərbaycanla bağlı dərc etdiyi xüsusi hesabatı və ABŞ Dövlət Departamenti tərəfindən ölkəmizin qondarma xüsusi izləmə siyahısına daxil olan ölkə kimi müəyyən edilməsi ilə bağlı bəyanat yayıb.**

AZƏRTAC bəyanatı təqdim edir: "ABŞ-nin Beynəlxalq Din Azadlığı Komissiyasının (BDAK) hesabatını, eləcə də ABŞ Dövlət Departamentinin bəyanatını qəti surətdə pisləyirik. Əminliklə bildiririk ki, ABŞ Dövlət Departamenti tərəfindən Azərbaycanda dini etiqad azadlığının pozulması barədə fərziyyələrə istinadla ölkəmizi heç bir beynəlxalq statusa malik olmayan qrupa (xüsusi izləmə siyahısı) daxil etməsi siyasi manipulyasiya vasitəsindən başqa bir şey deyil.

2013-cü ildən bəri BDAK hər il öz hesabatlarında ölkəmizdə dini azadlıqların pozulduğu iddiası ilə Dövlət katibi tərəfindən Azərbaycanın "xüsusi izləmə siyahısı"na daxil olan ölkə kimi müəyyənləşdirilməsini Dövlət Departamentinə tövsiyə etmiş, Azərbaycana qarşı qərəzli, yanlış məlumatlar yaymışdır. Dövlət Komitəsi olaraq dəfələrlə bu komissiyanın yaydığı hesabatlarla bağlı müvafiq açıqlamalar verilib, onların göstərdikləri heç bir fakta söykənməyən şayiə xarakterli, uydurma məsələlərlə bağlı mövqeyimiz müxtəlif səviyyələrdə diqqətə çatdırılıb. Habelə rəsmi məktublarla hesabatda qaldırılan məsələlərin doğru olmadığı və qərəzliliyi maddə-maddə onların diqqətinə çatdırılaraq etiraz ifadə edilmişdir. Eyni zamanda, Azərbaycanda olan müsəlman və qeyri-müsəlman icmalarının aparıcı qurumları həm sonuncu, həm də əvvəlki hesabatlarla bağlı xüsusi etiraz bəyanatları yaymış, komissiyaya göndərmiş, o cümlədən müxtəlif din xadimləri fərdi olaraq da mətbuatda açıqlamalar vermişlər.

ABŞ-nin Beynəlxalq Din Azadlığı Komissiyası tərəfindən təqdim olunan "nöqsanlar" ölkəmizdəki gerçəkliyi əks etdirmir, reallıqla daban-dabana ziddir. BDAK-ın məlum hesabatlarında bir çox məqamların araşdırılmadığı, qeyri-müstəqil və ənənəvi olaraq ermənipərəst mərkəzli məlumatlar yayan mənbələrdən istifadə edildiyi, bəzən isə hadisələrə məqsədli şəkildə yanlış izahatlar verilməsi diqqəti cəlb edir. Bu, hesabatların obyektivliyinə ciddi xələl gətirir, ümumiyyətlə, onların hazırlanmasında ifadə edilən məqsəd və məramlara qətiyyən uyğun gəlmir.

Bu gün Azərbaycan dövlətinin, o cümlədən Dövlət Komitəsinin qarşısında duran əsas vəzifə hüququn aliliyi prinsipi əsasında insanların dini etiqad azadlığının təmin edilməsidir. Bu azadlığın təmin edilməsində dini sahədə insanların hüquq və azadlığı, həmçinin ictimai və dövlət təhlükəsizliyinə yönəlmiş təhdidlərin qarşısının alınması mühüm məsələdir.

Hesabatda Azərbaycanın işğaldan azad edilmiş ərazilərində sözdə erməni abidələrinin vəziyyəti ilə bağlı narahatlıq, müsəlman abidələrinə qarşı törədilmiş vandalizmə münasibətdə isə dözümlü yanaşma sezilir. Eyni zamanda komissiya üzvlərini ərazilərimizə istinad edərkən hüquqi cəhətdən mövcud olmayan, siyasi baxımdan qərəzli və manipulyasiya xarakterli adların istifadəsinə yol verməməyə dəvət edirik. Belə ki, Azərbaycanda "Dağlıq Qarabağ" adında inzibati ərazi vahidi yoxdur, Qarabağ və Şərqi Zəngəzur iqtisadi zonaları var.

Abidələrlə bağlı. Sözügedən təşkilatın vaxtilə Ermənistan silahlı qüvvələrinin işğalı altında olduğu dövrdə ərazilərimizdəki tarixi-mədəni və dini abidələrlə bağlı hansısa məlumatına rast gəlməmişdik. Baxmayaraq ki, Azərbaycan dövləti həmişə həmin ərazilərdəki xalqımıza məxsus tarixi-mədəni və dini abidələrin erməni silahlı birləşmələri tərəfindən vandalizm aktlarına məruz qalması ilə bağlı dünya ictimaiyyətinə çağırışlar etmişdir. Hətta məscidlərimizin heyvan saxlama yerlərinə çevrilməsi, onların yararsız vəziyyətə salınması, təmir adı altında özgəninkiləşdirilməsi, qədim Azərbaycan dövləti olmuş Qafqaz Albaniyası irsinə aid abidələrin erməniləşdirilməsi, müsəlman qəbiristanlıqlarında insan qalıqlarına qarşı təhqiramiz hərəkətlərə yol verilməsi və bu kimi hallar barədə sübutlar təqdim etmişdir.

Bildiyiniz kimi, 2020-ci ildə 44 günlük müharibədən sonra vəziyyət tamamilə dəyişdi. İşğalın bitməsi ilə buradakı abidələrin, o cümlədən dini məbədlərin vəziyyəti, onların necə xarabalığa çevrilməsi gerçəkliyi öz təsdiqini tapdı. Təkcə onu demək kifayətdir ki, 67 məsciddən yalnız 2-si saxlanılmışdır. Onlardan da Ağdam Cümə məscidi hərbi oriyentir məqsədilə yararsız vəziyyətdə, Şuşadakı Yuxarı Gövhər ağa məscidi də qismən yararlı olub ki, onu da dünyaya özlərini "tolerant" göstərmək məqsədilə İran məscidi kimi təqdim etməyə çalışıblar. Qalanları isə Ermənistan silahlı birləşmələri tərəfindən tamamilə dağıdılmışdır. Amma hələ dünya ictimaiyyətinin bunu obyektiv araşdırması niyyətini müşahidə etməmişik. Buna baxmayaraq, Azərbaycan Bakının mərkəzindəki erməni-qriqoryan kilsəsini, hətta oradakı minlərlə erməni dilində olan kitabları qoruyub saxlamışdır.

Komissiyanın hesabatında Birləşmiş Millətlər Təşkilatının 2023-cü ilin oktyabrında başa çatan Qarabağdakı missiyası tərəfindən "mədəni və ya dini strukturların heç bir ziyan görmədiyi" məlumatı bildirilsə də, hansısa naməlum insan hüquqları təşkilatlarının iddiaları əsas gətirilməklə ali beynəlxalq təşkilatın hesabatına belə skeptik yanaşılması təəccüb doğurur. O cümlədən, Dövlət Departamentinin bəyanatında da bu məsələyə toxunulmamışdır.

Eyni zamanda Azərbaycan əleyhinə kampaniyalarda erməni lobbisi aktiv şəkildə iştirak edir. Komissiyanın heyətinə qərəzli erməni əməkdaşın cəlb olunması onun mahiyyətini bir daha sübut edir.

Reallıqda Azərbaycanda dini vəziyyət...

Azərbaycan müstəqilliyini bərpa etdiyi dövrdən etibarən bəzi xarici dairələr ölkəmizdə radikal və ekstremist dini ideyaların daşıyıcıları olan qrupların yaradılmasında maraqlı olublar. Azərbaycanda dini sahədə, insanların dini etiqad azadlığının təmin edilməsində hər il mütərəqqi yeniliklər baş verir. Qanunvericilik bazası mütəmadi təkmilləşdirilir, islahat aparılır və dini icmaların fəaliyyətinə dəstək verilir. Bildiyiniz kimi, hər il cənab Prezident İlham Əliyev tərəfindən rəsmi qaydada ölkədəki dini konfessiyalara maliyyə yardımı ayrılır ki, bu yardımın əhatə dairəsi bütün dini icmalara, o cümlədən qeyri-müsəlman icmalarına şamil edilir. Heydər Əliyev Fondu tərəfindən tarixi-mədəni abidələr bərpa olunur, yeni ibadət ocaqları inşa edilir. Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva bölgələrə səfər edərkən mütləq həmin ərazidə yerləşən dini ibadət yerlərini ziyarət edir, dindarlarla söhbətlər edir, onları dinləyirlər.

Eyni zamanda dövlət başçısı tərəfindən işğaldan azad olunmuş ərazilərdəki dini abidələr xüsusi nəzarətə götürülmüşdür. İstisnasız olaraq həmin ərazilərdə yerləşən dini ibadət ocaqlarının bərpası üçün göstəriş verilmişdir. Artıq Şuşada dağıdılmış bəzi məscidlər, kilsələr bərpa edilmişdir. Şuşada Yuxarı Gövhər ağa məscidinə din xadimi təyin edilmişdir.

Həmçinin bildirməliyik ki, neçə illərdir din xadimlərinə dövlət tərəfindən maddi yardımlar olunur. Onların sosial layihələri maliyyələşdirilir. Onlarla birgə tolerantlığı, birgəyaşayışı əks etdirən konfranslar və s. tədbirlər təşkil edilir. Ötən ildə Bakı şəhəri "Azərbaycan Bibliya Cəmiyyəti" xristian dini icması və digər qeyri-islam dini icmaları tərəfindən Azərbaycanda fəaliyyətdə olan dini konfessiyaların nümayəndələrinin iştirakı ilə Quba, İsmayıllı, Kəlbəcər və s. rayonlara səfərlər təşkil olunub. Belə səfərlər icmalar arasında dostluq və mehribanlıq münasibətlərini möhkəmləndirir.

Azərbaycanın multikulturalizm və tolerantlıq ənənələrinin inkişaf etdirilməsində, dünyaya yayılmasında mühüm işlər görülür. Xatırladırıq ki, bu məqsədlə Dövlət Komitəsi tərəfindən təkcə 2022-ci ildə ABŞ-də - Vaşinqtonda "Qlobal sülh və təhlükəsizlik naminə dinlərarası harmoniya" və Belçikada - Brüssel şəhərində "Daha təhlükəsiz dünya naminə dinlərarası və mədəniyyətlərarası dialoqun təşviqi" adlı konfranslar təşkil olunub. Beynəlxalq institutlarla, o cümlədən ABŞ-nin adıçəkilən təşkilatı ilə əməkdaşlıq imkanlarının genişləndirilməsi istiqamətində tədbirlər həyata keçirilir, onların rəhbərləri və mütəxəssisləri ilə müxtəlif səviyyələrdə görüşlər keçirilir və fikir mübadiləsi aparılır.

Beləliklə, Dövlət Departamenti hər il sözügedən hesabatlar əsasında ayrı-ayrı ölkələrdəki dini durumla bağlı açıqlamalar verir. Qeyd edək ki, komissiyanın 10 il ərzində tövsiyələrinə baxmayaraq, bu il yanvarın 4-dək Azərbaycan Departament tərəfindən "xüsusi izləmə siyahısı"na daxil olan ölkə kimi müəyyən edilməmişdir (Azərbaycan ilə yanaşı, Əlcəzair, Mərkəzi Afrika Respublikası, Qəmər adaları və Vyetnam da sözügedən "siyahı"da olan ölkə kimi təyin edilmişdir).

Hesab edirik ki, bütün bunlar Azərbaycanın ərazi bütövlüyü və suverenliyinin bərpasına yönəlik uğurlu addımlarını həzm edə bilməyənlərin ölkəmizə qarşı atdığı qərəzli addımlarından biridir. Dini baxımdan "nəzarətə götürülməli" olan ölkələrdən biri Ermənistan və ABŞ-dir. Lakin erməniləri himayə edənlər onu görmək əvəzinə, Azərbaycana hücum edirlər. Monoetnik Ermənistanda ayrı-ayrı din nümayəndələrinin təqib edilməsi faktlarını heç kim gizlədə bilməz. 30 il ərzində 20 faiz ərazimizi işğal altında saxladığı zaman həm müsəlman, həm də digər dinlərə, o cümlədən Qafqaz Albaniyasına aid dini abidələrə qarşı vandalizm aktı törədənin Ermənistan olduğunu hamı bildiyi halda, Azərbaycanı izləmə siyahısına daxil etmək qərəzli yanaşmadır.

Elə ABŞ-nin özündə də müsəlmanlara və digər dini icmalara, habelə qaradərililərə qarşı nə qədər hadisələrin olduğu hamıya bəllidir. ABŞ-li hüquq müdafiəçilərinin məlumatlarına görə, 2021-ci ildə ABŞ-də dini dözümsüzlük zəminində yəhudi və müsəlmanlara qarşı törədilmiş 1005 cinayət faktı qeydə alınıb. Eləcə də 2022-ci ildə 6720 müsəlman dini ayrı-seçkiliyə məruz qalıb. Antiislam əhvali-ruhiyyəsinin həyəcanverici həddə çatması barədə məlumatlar Amerika reallıqlarının kiçik bir hissəsini əks etdirir.

Beləliklə, komissiya və Dövlət Departamentinin müsəlman abidələrinə qarşı edilmiş vandalizmi görməzdən gələrək Azərbaycanın müstəqil siyasətinə təsir göstərmək cəhdi yolverilməzdir. Sözsüz ki, bu, ABŞ-Azərbaycan münasibətlərinə də xələl gətirir.

Fürsətdən istifadə edərək Dövlət Departamentinə regionda yaranmış yeni reallıqlardan çıxış edərək Azərbaycana qarşı qarayaxma aparan ermənipərəst qüvvələrin dəyirmanına su tökməməyi, ikili standartlardan uzaq olmağı və beynəlxalq hüquq normalarına uyğun addımlar atmağı tövsiyə edirik".

# Həqiqəti hesabatda yox, həyatda görmək mümkündür

**Hər deyilən söz doğru olmur, hər yazılan söz həqiqəti əks etdirmir. Həqiqət kəsərli və inandırıcı olur. Qərəzli söz, yalan fikir isə elə ilk addımda özünü qabarıq şəkildə göstərir. Bu, istər rəsmi, istərsə də qeyri-rəsmi yazışmalarda, bəyanatlarda və hesabatlarda özünü büruzə verir.**

Amerika Birləşmiş Ştatlarının Dövlət Departamenti hər il dünyada insan haqları, dini azadlıqlar və s. kimi məsələlərlə bağlı hesabatlar dərc edir. Təəssüflər olsun ki, bu hesabatlar heç də həmişə reallığı əks etdirmir, yalanlara söykəndiyinə görə faktlar təhrif olunur. Qəribədir ki, ictimaiyyətə təqdim edilən və reallıqdan uzaq olan bu hesabatlarda, adətən, eyni ölkələr hədəfə alınır, eyni fikirlər səsləndirilir. Başqa ölkələrə isə "gözünün üstündə qaşın var" deyilmir.

Bir qayda olaraq həmişə insan hüquqlarından, demokratiyadan bir alət kimi istifadə edən ABŞ-nin bu məsələlərdə səmimi, obyektiv olmadığı ictimaiyyətə çoxdan məlumdur. Dövlət Departamentinin illik hesabatları isə, adətən, qərəzli və ikili standartlar üzərində qurulur. Reallıq odur ki, hesabatlar həqiqəti yox, ABŞ-nin görmək istədiklərini əks etdirir. Departamentin dini azadlıqlarla bağlı sonuncu hesabatı qərəzli siyasətin, qərəzli davamından başqa bir şey deyil. Hesabat demək olar ki, cəfəngiyyat və yalanlar üzərində qurulub. Üstəlik, hesabatda ABŞ-nin Ermənistana olan sevgisinin bitib-tükənmədiyi də hiss olunur.

ABŞ Dövlət Departamentinin dünya ölkələrində dini azadlıqların vəziyyəti ilə bağlı hazırladığı sonuncu hesabatının Azərbaycana aid hissəsində həmişəki kimi ikili standartlar, hadisələrə siyasi don geyindirilməsi açıq-aydın görünür. Qəribədir ki, dini azadlıqlara aid hesabatlarda Azərbaycana dair səslənən həqiqətdən uzaq olan iddialar fonunda Ermənistanla bağlı iddialar öz əksini tapmır. Vaxtilə qeydiyyatdan keçirilmiş 300-ə yaxın məscidin və azərbaycanlılara məxsus bütün dini və mədəni irsin, qəbiristanlıqların Ermənistan tərəfindən dağıdılması faktları hesabatda əks olunmur. Halbuki Ermənistan hakimiyyəti və ermənilər Azərbaycan torpaqlarını işğal altında saxladıqları illərdə tarixi kilsə və məscidləri dağıdaraq yararsız hala salıblar. Ancaq 30 il ərzində Dövlət Departamenti özünə əziyyət verib bunlarla bağlı etirazını bildirməyib.

2016-cı ildə Roma Papası Fransisk ölkəmizə səfəri zamanı Azərbaycanda xristian kilsələrinə hörmətlə yanaşıldığını etiraf etmişdi. Azərbaycan dünyanın bir çox yerlərində, o cümlədən Vatikanda xristianlığa məxsus dini abidələrin bərpası ilə bağlı layihələr həyata keçirib. 2018-ci il sentyabrın 26-da Romada Heydər Əliyev Fondu tərəfindən bərpa edilmiş Müqəddəs Sebastyan katakombalarının açılışı olub. Açılış mərasimində vurğulanıb ki, bu katakombalar bütün xristian dünyası üçün böyük əhəmiyyət kəsb edir. Onlar 1578-ci ildə aşkar edilib və buradakı bəzi abidələr III əsrə aiddir.



Hesabatla tanış olduqca elə ilk cümlələrindən hiss edirsən ki, onun Azərbaycana aid hissəni ya erməni, ya fransız, ya da onlarla həmfikir olanlar hazırlayıb. Hesabatın müəllifləri ilə maraqlananda görürük ki, ehtimalımız bizi aldatmayıb. Sən demə, Dövlət Departamenti bu qərarı Dini Etiqad Azadlığı üzrə Dövlət Komissiyasının hesabatı əsasında qəbul edib və bu komissiyaya Daniela Aşbaxyanın rəhbərlik edir. Adıçəkilən Daniela Amerika Erməni Assambleyasının rəhbər vəzifəli şəxslərindən biri olub və bir müddət Livanın Los Ancelesdəki konsulluğunda işləyib. ABŞ-nin mövcud qanunlarına görə, başqa ölkəyə çalışan birisinin ABŞ Dövlət Departamentində işləyərək bu dövlətin xarici siyasətinin müəyyənləşməsində iştirak etməsi qadağandır. Belə olan halda öz ölkəsinin qanunlarına əməl etməyən, hörmətlə yanaşmayan Dövlət Departamentinin hesabatına necə inanmaq olar?!

Gün kimi həqiqətdir ki, Azərbaycanda real dini vəziyyət-tolerantlıq hesabatda göstərilənlərin tam əksinədir. Azərbaycan Prezidenti İlham Əliyevin yürütdüyü tolerantlıq siyasətinin əsas hədəfi cəmiyyətdə dini, milli həmrəyliyin qorunub saxlanmasıdır. Ölkəmizin çoxəsrlik tarixinə söykənən bu tolerantlıq prinsipləri bütün dünya üçün nümunədir. 1992-ci ildə ölkəmizdə "Dini etiqad azadlığı haqqında" qanun qəbul olunub. 1995-ci il noyabrın 12-də qəbul olunmuş Azərbaycan Konstitusiyasında isə yazılıb: "Hər kəsin dinə münasibətini müstəqil müəyyənləşdirmək, hər hansı dinə təkbaşına və ya başqaları ilə birlikdə etiqad etmək, yaxud heç bir dinə etiqad etməmək, dinə münasibətilə bağlı əqidəsini ifadə etmək və yaymaq hüququ vardır..."

Ölkəmizdə ayrı-ayrı dinlərə aid olan ibadət yerləri sərbəst şəkildə fəaliyyət göstərir. Azərbaycan Prezidenti İlham Əliyev dini bayramlarda onlara təbrik ünvanlayır, xoş arzularını bildirir. Bir sözlə, ölkəmizdə müxtəlif dinlərin və məzhəblərin nümayəndələri azərbaycançılıq ideologiyası ətrafında sıx birləşərək mehriban ailə kimi yaşayır və daim həmrəyliyini qoruyurlar.

Bütün bunlar bir daha onu göstərir ki, Dövlət Departamentinin hesabatında Azərbaycanla bağlı qeyd olunanlar, yumşaq desək, həqiqətdən uzaqdır. Bu baxımdan yalandan yoğrulmuş bu hesabatın ölkəmizin dünyada artan nüfuzuna kölgə salmaq məqsədi aydındır. Belə uydurma hesabatları ciddi hesab etməyən Azərbaycan dövləti isə bundan sonra da milli maraqlarına xidmət edən öz dəstxətini uğurla davam etdirəcək. Qoy beynəlxalq təşkilatlar unutmasınlar ki, həqiqəti əks etdirməyən belə hesabatlarla rəsmi Bakıya təzyiq göstərmək mümkün deyil. Bu, həm də ABŞ-nin nüfuzuna ziyan vuran uğursuz bir addımdır.

*Vahid MƏHƏRRƏMOV, "Azərbaycan"*





# Mədəniyyət





## Şuşa islam dünyasının mədəniyyət paytaxtıdır

**Tarixi şəhərlərimizdən olan Şuşanın zəfər dolu çağlarıdır. 2020-ci ildə 44 gün davam edən İkinci Qarabağ müharibəsində Azərbaycan Ordusu misilsiz rəşadət nümunəsi göstərərək otuz ilə yaxın Ermənistanın işğalında qalan ərazilərimizi azadlığa qovuşdurdu. İkinci Qarabağ müharibəsində zəfərimizin zirvəsi Şuşa şəhəri oldu.**



# Ulu yurdumuzdan dünyaya yenə sülh, birlik, humanizm mesajları veriləcək

Bu qala şəhərimizi Ermənistanın silahlı qüvvələrinin işğalından azad edərkən əsgər və zabitlərimiz tarix yazdılar. Onlar çətin şəraitdə uzun məsafə qət edərək, dərin dərələrdən, sıldırım qayalardan keçərək düşməni Qarabağın baş tacı Şuşadan qovub çıxardılar. Prezident İlham Əliyevin sərəncamı ilə bu möhtəşəm zəfər əbədiləşdirildi. Tarixi əhəmiyyəti nəzərə alınaraq, Şuşa şəhərinin işğaldan azad edildiyi gün - noyabrın 8-i Zəfər Günü elan olundu. 2021-ci il yanvarın 14-də isə dövlətimizin başçısı, Ali Baş Komandan İlham Əliyev Şuşa şəhərində üçrəngli bayrağımızı ucaltdı.

Prezident İlham Əliyevin göstərişi ilə işğaldan azad edilmiş ərazilərimizin qısa müddət ərzində yenidən qurulması, qədim yurdlarımızda həyatın canlanması məqsədilə geniş və sürətli tikinti-quruculuq işlərinə başlanıldı. Qədim Şuşa şəhərinin bəxti yenidən üzünə güldü. Erməni vandallarından qurtulan bu gözəl şəhərdə tarixi-mədəni və dini abidələrin bərpa edilərək istifadəyə verilməsi istiqamətində təqdirəlayiq işlər həyata keçirildi. Çox keçmədi ki, Şuşa beynəlxalq tədbirlərin keçirildiyi məkana çevrildi.

Prezident İlham Əliyevin sərəncamı ilə 2022-ci il Azərbaycanda "Şuşa ili" elan edildi. Şuşanın mədəni həyatının canlanmasına dəstək məqsədilə musiqi festivalları, poeziya günləri, çoxsaylı yerli və beynəlxalq mədəni tədbirlər keçirildi. Tədbirlər il boyu yalnız Şuşada deyil, bütün ölkədə təşkil olundu.

"Şuşa ili" çərçivəsində həyata keçirilən tədbirlər həm Şuşanın, həm də bütövlükdə Azərbaycan mədəniyyətinin zəngin irsinin, həmçinin türk dünyasının mədəniyyətinin təqdim və təbliğ olunmasında mühüm rol oynadı, türk dövlətləri arasında mədəniyyət sahəsində əlaqələrin inkişafı üçün geniş imkanlar yaratdı.

Ötən il isə Şuşa türk dünyasının mədəniyyət paytaxtı oldu. Belə ki, 2022-ci il martın 31-də Türkiyənin Bursa şəhərində Beynəlxalq Türk Mədəniyyəti Təşkilatına (TÜRKSOY) üzv ölkələrin Mədəniyyət Nazirləri Daimi Şurasının qərarı ilə Şuşa şəhəri 2023-cü il üçün "Türk dünyasının mədəniyyət paytaxtı" elan edildi. Şuşa türk dünyasından bu missiyanı qəbul edən 11-ci şəhər oldu.

Şuşa şəhərinin 2023-cü il üçün türk dünyasının mədəniyyət paytaxtı elan edilməsi ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 6 dekabr tarixli sərəncamına uyğun olaraq silsilə tədbirlər təşkil edildi. Keçən il dekabrın 10-da Şuşa şəhərində Mədəniyyət Nazirliyi və Beynəlxalq Türk Mədəniyyəti Təşkilatının (TÜRKSOY) birgə təşkilatçılığı ilə "Şuşa - Türk dünyasının mədəniyyət paytaxtı - 2023" ilinin rəsmi bağlanış mərasimi keçirildi.

Müharibə başa çatdıqdan sonra zəfər sevinci ilə qürurlandığımız ötən üç ildə hiddət doğuran hadisələr də az olmadı. İkinci Qarabağ müharibəsində məğlub olan işğalçı Ermənistan təəssüf ki, nə ərazilərimizdən birdəfəlik ayaqlarını, nə də sərvətlərimizdən gözlərini çəkdi. Azərbaycan dövləti və xalqı öz əzəli torpaqlarında tikinti-bərpa, quruculuq işləri həyata keçirərkən də Ermənistanın silahlı qüvvələrinin qalıqları və öz bəd, məkrli əməllərini torpaqlarımızda davam etdirirdilər. Bütün bunlara ötən ilin sentyabrında aparılan lokal xarakterli antiterror tədbirləri zamanı son qoyuldu. Azərbaycan Ordusunun yüksək peşəkarlığı, döyüş məharəti təcavüzkar, qəsbkar düşməni məğlubiyyətə uğradaraq ağ bayraq qaldırmağa, aman diləməyə vadar etdi. Azərbaycan suverenliyini tam bərpa etdi. Bu, son iki yüz ildə işğal olunmuş ərazilərimizin azad edilməsi istiqamətində əldə edilmiş ilk Zəfərimizdir.

Bu möhtəşəm qələbə - bütün ərazilərin üzərində tam hüquqi nəzarətini bərpa etməsi yalnız Azərbaycan tarixinə deyil, islam ölkələri tarixinə də böyük uğur kimi yazıldı. Odur ki, bu qələbə islam dünyasında böyük sevinclə, fərəhlə, qürurla qarşılandı.

Ötən il sentyabrın 25-də Qətər dövlətinin paytaxtı Doha şəhərində keçirilən İslam Dünyası Mədəniyyət Nazirlərinin 12-ci Konfransında yekdil qərarla Qarabağın incisi olan Şuşa şəhəri bu il - 2024-cü il üçün İslam dünyasının mədəniyyət paytaxtı elan edildi.

İslam dünyasının mədəniyyət paytaxtı adına namizədliyinin irəli sürülməsi məqsədilə ICESCO-nun müvafiq missiyası Şuşada oldu, şəhərdə həyata keçirilən quruculuq işlərini yüksək qiymətləndirdi.

Dövlət başçısı İlham Əliyev ötən ilin 21 noyabrında Şuşa şəhərinin 2024-cü il üçün islam dünyasının mədəniyyət paytaxtı elan edilməsi ilə bağlı tədbirlər haqqında sərəncam imzaladı. Sərəncamda deyilir: "2023-cü il sentyabrın 25-də Qətər Dövlətinin paytaxtı Doha şəhərində keçirilən İslam Dünyası Mədəniyyət Nazirlərinin 12-ci Konfransında Azərbaycanın mədəniyyət paytaxtı Şuşa şəhəri 2024-cü il üçün islam dünyasının mədəniyyət paytaxtı elan edilmişdir. Bu qərar Azərbaycanın tarixi-mədəni, ictimai-siyasi həyatının mühüm mərkəzlərindən biri olub islam mədəniyyətinin zənginliklərini dolğun təzahür etdirən Şuşaya xüsusi ehtiramın ifadəsidir və islam dünyasının həmrəyliyinin yeni rəmzinə çevrilməklə qarşılıqlı əməkdaşlıq münasibətlərinin daha da genişləndirilməsində özünəməxsus rol oynayacaqdır".

Şuşa şəhəri 2024-cü ildə islam dünyasının mədəniyyət paytaxtı missiyasını yerinə yetirəcək. Onu da qeyd edək ki, bu il Şuşa islam dünyasının həm mədəniyyət, həm də gənclər paytaxtıdır. Belə ki, Qarabağın incisi Şuşa şəhəri İslam Əməkdaşlıq Təşkilatının 2024-cü il üçün Gənclər paytaxtı seçilib. Bu barədə qərar İslam Əməkdaşlıq Təşkilatı (İƏT) Gənclər Forumu İcraiyyə Şurasının İstanbulda keçirilən 11-ci iclasında qəbul olunub. Həmin iclasda İƏT Gənclər Forumunun həyata keçirdiyi "Gənclər paytaxtı - 2024" beynəlxalq proqramının seçim komissiyasının üzvləri bu qərarın lehinə yekdilliklə səs veriblər. Layihənin əsas məqsədi dünya gənclərini bir araya gətirməkdir. Bu il müxtəlif ölkələrdən gələn gənclər tarixi Şuşa şəhərimizə gələcək, təşkil ediləcək tədbirlərdə iştirak edəcəklər.

Görünən odur ki, Azərbaycanın mədəniyyət paytaxtını bir-birindən maraqlı tədbirlərlə zəngin, qonaq-qaralı bir il gözləyir. Böyük mədəniyyət layihələrinə, beynəlxalq tədbirlərə evsahibliyi edən Şuşa şəhərindən bu il yenə də dünyaya sülh, birlik, humanizm mesajları veriləcək.

*Zöhrə FƏRƏCOVA,*
*"Azərbaycan"*

## Tarixin izi ilə

# Alov evi - Atəşgah

## Dünyanın müqəddəs məbədlərindən biri

Uzaq məmləkətlərdən gələn karvan böyük İpək yolu ilə min kilometrlərlə məsafəni qət edərək Xəzəryanı ərazilərə çatanda artıq qaş qaralmış, ətrafa qaranlıq çökmüşdü. Axşamın qəribə sakitliyində qarşıdakı qumsallıqlarda sanki düşərgah salınmış kimi neçə-neçə tonqal alovlanırdı. Sarvan heyrətamiz mənzərə qarşısında bir anlıq çaşdı, əlinə doladığı ovsarı bərk-bərk çəkib dəvəsini dayandırdı, yerə enib möcüzəyə daha yaxından baxmağa başladı. Burada nəinki torpaq, kiçik su hövzələri də yanaraq şölələnirdi...



Tacirlər öz el-obalarına qayıtdıqdan sonra ölkəmizdə şahidi olduqları bir çox mətləblər, xüsusən yerdən çıxan təbii alov dilimləri barədə də söhbət açdılar. Nəticədə əbədi odun, atəşin sorağı bütün Şərqə, dünyaya yayıldı - hər yandan inanclı insanlar, zəvvarlar, oda tapınanlar axışıb gəlməyə başladılar. Artıq Bakı-Suraxanı onlar üçün müqəddəsləşmişdi, qutsal əhəmiyyətə malik idi. Burada müxtəlif dini təlimlərin ardıcılları - zərdüştilər, hinduistlər və siqhlər ibadətə toplaşardılar. Atəşgah abidə kompleksi 1713-cü ildə inşa olunsa da, məbədin özü daha qədimdir - tikiliş tarixi II, III əsrlərə gedib çıxır - ilkin quruluşunu dövrümüzə qədər saxlayıb. Müxtəlif diyarlardan, o cümlədən də Hindistandan gələn atəşpərəstlər burada alova sitayiş edirdilər. Tanınmış hind alimi Mode yazırdı ki, Azərbaycanda - Suraxanıda dünyanın ən müqəddəs məbədlərindən biri yerləşir.

Atəşgah Qərb mütəfəkkirlərinin də daim diqqət mərkəzində olub. Zaman-zaman müxtəlif dünyagörüşlü insanlar, o cümlədən səyyahlar, yazarlar, alimlər məbədin ziyarətinə gəliblər. Onların arasında Düma, Kenfr, Villot, Berezin və başqaları vardı. XVIII əsrdə İngiltərənin görkəmli ictimai xadimi, səyyah və publisist Conas Hanuey (1744) Bakı ətrafında ayrı-ayrı dövrlərdə tikilən müxtəlif tipli qədim od məbədlərinin tam komplekslərinin mövcudluğu haqqında xəbər verirdi. Məşhur yazıçı Aleksandr Düma "Qafqaz səfəri" əsərində yazırdı: "Nahar qurtaran kimi qapıda hazır dayanan faytonlara minib məşhur Atəşgaha getdik. Bakı Atəşgahı, az səyahət edən fransızlar istisna olmaqla, bütün aləmə bəllidir. Biz tamamilə alova bürünmüş qapıdan həyətə girdik. Böyük dördkünc həyətin ortasında günbəzli səcdəgah ucalır. Səcdəgahın tən ortasında əbədi alov şölələnir". Məbəd D.Mendeleyevin də diqqətini çəkmişdi. Tacir Konerevin 1855-ci ildə Atəşgah yaxınlığında tikdirdiyi kerosin zavodunda tədqiqatları üzrə çalışan böyük rus kimyaçısı həyat yoldaşına məktubunda bunun çox maraqlı məbəd olduğunu və indiyədək beləsini görmədiyini bildirirdi. Şərqşünas İlya Berezinin fikirləri də maraqlıdır: "Rusiyanın cənub qurtaracağında yerləşən Bakı şəhəri hər növ turistlərin tam və dərin marağına layiq bir çox möcüzələrdən ibarətdir; lakin heç şübhəsiz ki, sönməyən odlar özünə görə yeganə bir hadisədir, səyyahların nəzərini hər şeydən cox cəlb edir".

VII əsrdə Azərbayçanda islam dininin qəbulu ilə bağlı oda sitayiş məkanları tədricən unuduldu və sıradan çıxdı. "Atəşgah məbədi" bir də XVI-XVII əsrlərdə ikinci həyatına qədəm qoydu. Hansı ki elmi intibah və beynəlxalq ticarət əlaqələrinin canlanması səbəbindən Azərbaycandan keçən məşhur İpək yolu da xeyli fəallaşmış, ekspedisiyalar, karvan səfərləri intensivləşmişdi. Yenidən səsi-sorağı aləmə yayılan ziyarətgaha üz tutan atəşpərəstlər hücrələrdə məskunlaşırdılar. Bir hücrədə 4-5 nəfər qalırdı. Başqa ölkələrdən gələn tacirlər də müqəddəs yer kimi mütləq Atəşgaha baş çəkirdilər. Onlar tərəfindən atəşpərəstlərə, zərdüştlərə maliyyə vəsaiti də ayrılırdı.

Memarlıq kompleksi beşguşəli çıxıntılı və iri giriş yerinə malik müdafiə divarları, eləcə də ərazinin mərkəzində yerləşən dördguşəli altar - alov məbədindən ibarətdir. Giriş üzərində Şirvan-Abşeron memarlıq məktəbi üçün xarakterik olan qonaq otaqları - balaxana inşa edilmişdir. Alov altarı Azərbaycan ərazisində hələ Midiya dövründən yayılmış qədim altar inşası ənənələrini özündə yaşadır.

Atəşgah 26 hücrə və mərkəzi ibadətxananı birləşdirir. Mərkəzi ibadətxana ən müqəddəs yer sayılırdı. Ora ancaq baş kahinlər keçə bilər və sitayiş edərdilər. Məbəddə hücrələrin üstündə yerləşdirilmiş 20 qiymətli daş kitabə var. Birini Zərdüşt, 19-nu isə atəşpərəstlər qoymuşlar. Onlardan 19-u hind, biri fars dilində yazılıb.

"Atəşgah məbədi" əvvəllər "Şirvanşahlar Sarayı Kompleksi Dövlət Tarix-Memarlıq Qoruq Muzeyinin filialı kimi fəaliyyət göstərirdi. Onun unikallığını, özünəməxsusluğunu və UNESCO-nun Dünya İrsinin ilkin siyahısına daxil edilməsini nəzərə alan dövlətimizin başçısı 19 dekabr 2007-ci ildə "Bakı şəhəri Suraxanı rayonunda Atəşgah məbədi ərazisinin "Atəşgah məbədi" Dövlət Tarix-Memarlıq Qoruğu elan edilməsi haqqında" sərəncam imzalayıb.

Hər il muzeyi orta hesabla 130-140 min nəfər ziyarət edir. 2009-cu ildə Bakının islam mədəniyyəti paytaxtı elan olunması münasibətilə burada "Sönməyən alovlar" fotosərgisi və başqa maraqlı tədbirlər keçirilib. Həmin il iyulun 1-də Prezident İlham Əliyev "Atəşgah məbədi" Dövlət Tarix-Memarlıq Qoruğunun mühafizəsinin təkmilləşdirilməsi və onun maddi-texniki təminatının yaxşılaşdırılması məqsədilə sərəncam verib.

"Atəşgah məbədi" Dövlət Tarix-Memarlıq Qoruğunun direktoru Ramin Quliyev deyir: "2012-ci ildə Heydər Əliyev Fondunun dəstəyi ilə məbəddə bərpa işləri aparılaraq ətraf ərazilər abadlaşdırılmış və açıq səma altında muzey yaradılmışdır. Dövlətimizin turizm sektorunda apardığı uğurlu siyasət Azərbaycanın hər bir turizm obyektlərində olduğu kimi, "Atəşgah məbədində də öz əksini tapır. Təqribi hesablamaya görə, Atəşgah memarlıq qoruğunu hər ay mindən çox turist ziyarət edir. Turistlər, əsasən, Pakistan, Hindistan, Rusiya, Avropa və ərəb ölkələrindən olur".

Bəli, Azərbaycan torpağında minlərlə belə ocaq yanır. İstər möhtəşəm məbədlərdə, istərsə də səcdəgahlarda səndəl və şümşad ağaclarının ətrini ətrafa yayan "müqəddəs od" alovlanır. İnsanlar ta uzaq keçmişdən bədbəxtlik və zülmdən müdafiə axtarışında, xoşbəxtlik və əmin-amanlıq haqqında dualarla oda ibadət edirdilər. "Atəşgah"ın tarixi taleyində xalqımızın çoxəsrlik ənənələri, qəhrəmanlıq hadisələri, dünya sivilizasiyası xəzinəsinə töhfələri, tolerant, multikultural dəyərləri ilə zəngin böyük mərhələləri - keçmişi və bu günü bir-birinə qovuşmuşdur. Və beləcə, qədim əbədi alovlara görə də Vətənimiz "Odlar yurdu" adını almışdı. Həmin qığılcımlar, közərtilər nəzərləri cəlb edərək, əsən meh istiqamətində haçalanan təbii alov dilimlərinin həyəcanlandırıcı gözəlliyi ilə bəşər övladlarını ovsunladılar.

*Qurban MƏMMƏDOV*

## Daş yaddaşımız

# Qədim tariximizin pozulmayan izləri

Müdriklər çox yerində deyiblər ki, abidələr tarixin pozulmayan daş yaddaşıdır. Doğrudan da elədir. Hansısa kiçik bir abidə böyük bir xalqın keçmişindən, dünənindən, mədəniyyətindən, mənəvi zənginliyindən xəbər verir. Nə yaxşı ki abidələr zamanın sərt sınaqlarından çıxaraq bu günümüzə qədər gəliblər.



Bəlkə də, bu abidələr tarixdən bizə xəbər vermək üçün əbədi olaraq daşlaşıblar. Sanki abidələr mənsub olduğu xalqın mədəniyyətini, mənəviyyatını özündə yaşatmaq üçün dünəndən sabahlara doğru yol gedirlər. Hər daşında, hər parçasında insan əlinin izi qalmış bu abidələr hamımız üçün əziz və doğmadır. Çünki bu abidələr ulu babalarımızdan bizlərə miras qalmış ən dəyərli və ən qiymətli yadigarlardır. Bəzən bir-birindən bənzərsiz, hamımızı heyrətə gətirən abidələrə baxdıqca fikirləşirik ki, əgər onların dili olsaydı, görəsən, ötənlərdən, keçənlərdən nələr danışardı, nələr deyərdi?

Azərbaycan yer üzündə bəşər sivilizasiyasının yarandığı ən qədim məkanlardan biridir. Uzun illər aparılan arxeoloji qazıntıların nəticələri göstərir ki, bu yerlərdə yaşayan insanlar özlərindən sonraya bir-birinə bənzəməyən yüzlərlə, minlərlə abidə tikib qoyublar. Şükürlər olsun ki, dünya və Şərq memarlığının ən gözəl incilərindən hesab olunan həmin abidələrin bir çoxu bu gün qalır. Onları ziyarət edəndə xəyalən ötən illərə, əsrlərə qayıdırıq.

Təəssüf ki, otuz ilə yaxın müddətdə ermənilər maddi mədəniyyət abidələrinin zənginliyi ilə seçilən Qarabağ bölgəsinin islam mədəniyyətinə aid olan bütün abidələrini vəhşicəsinə dağıtmışdılar. Bəşəriyyətin ilk insan məskənlərindən olmuş Azıx və Tağlar mağaraları, Qaraköpək, Üzərliktəpə kurqanlarından hərbi məqsədlər üçün istifadə edilib. Xocalı, Ağdam, Füzuli, Cəbrayıl və başqa rayonlardakı kurqanlarla yanaşı, işğal olunmuş Şuşa, Laçın, Kəlbəcər, Qubadlı, Zəngilan, Füzuli rayonlarının ərazilərindəki qəbiristanlıqlar, türbələr, məzarüstü abidələr, məscidlər, məbədlər erməni işğalçıları tərəfindən məhv edilib.

Dünya mədəniyyətinin ayrılmaz parçası olan Azərbaycan xalqının mədəni irsi çoxəsrlik tarixi keçmişimizdən yadigardır və bu tarixi abidələrin mühafizəsi bəşəri əhəmiyyət daşıyır. Məqbərələr, məbədlər, məscidlər, qəbiristanlıqlar, körpülər, ovdanlar, günbəzlər, minarələr və keçmişimizin digər maddi yadigarları zamanın sərt sınaqlarına sinə gərib. Qobustan, Gəmiqaya, İstisu qayaüstü təsvirləri, Çıraqqala, Oğlanqala, Gələrsən-Görərsən kimi qalalarımız, Mömünə xatun türbəsi, Yusif ibn Küseyr, Olcaytu Xudabəndə məqbərələrimiz, Göy məscid, Cümə məscidi, Təzəpir məscidi kimi dini ibadətgahlarımız, Şəki Xan Sarayı kimi nadir memarlıq abidələrimiz bu qəbildəndir. Başqa ölkələrdə olduğu kimi, tarixi abidələrlə zəngin olan Azərbaycanda da 18 Aprel Beynəlxalq Abidələr və Tarixi Yerlər Günü qeyd olunur. Bu əlamətdar gün 1983-cü ildə UNESCO-nun yanında Tarixi Yerlər və Abidələrin Mühafizəsi Şurasının Beynəlxalq Assambleyası tərəfindən təsis olunub. Bu günü təsis etməkdə əsas məqsəd insanların diqqətini abidələrin və tarixi yerlərin qorunmasına yönəltməkdir. Bu istiqamətdə aparılan maarifləndirmə işləri müsbət nəticələr verir.

Arxeoloji qazantılar zamanı Azıx mağarasından tapılmış insanın çənə sümüyü, Qobustanda aşkar edilmiş yaşayış məskənləri Azərbaycanda ən qədim dövrlərdən insanların məskunlaşdığını təsdiqləyir. Tarixin müxtəlif dövrlərində ölkəmizin ərazisində müxtəlif dövlətlərin yaranması ilə əlaqədar qədim şəhərlər salınıb, müdafiə tikililəri, əzəmətli qala divarları hörülüb. Orta əsrlərə aid abidələr Qız Qalası, Möminə Xatun, Qarabağlar, Gülüstan, Allah-Allah türbələri, Şirvanşahlar sarayı, Şəki xan sarayı, Şuşa şəhərinin abidələri və başqaları nəinki Şərq, hətta dünya memarlığının ən gözəl, ən nadir incilərindəndir.

Abidələrin və tarixi yerlərin dağıdılması xalqın, millətin varlığının məhvi deməkdir. Çünki abidələr xalqın keçmişinə güzgü tutur, onu dünyaya tanıdır və yaşadır.

Hazırda dünyada baş verən siyasi proseslər nəticəsində minlərlə abidə məhv olmaq təhlükəsi ilə üz-üzədir. Bu baxımdan Beynəlxalq Abidələr və Tarixi Yerlər Gününün təsis olunmasının çox böyük əhəmiyyəti var.

Hər daşında, hər qayasında şərəf dolu tarixi keçmişimizi yaşadan abidələrimizin qorunması və gələcək nəsillərə çatdırılması istiqamətində dövlətimiz tərəfindən mühüm addımlar atılır. Ölkəmizin ərazisində olan, özündə tariximizin kiçik bir parçasını əks etdirən böyüklü-kiçikli bütün abidələrin qorunması istiqamətində zəruri tədbirlər həyata keçirilir. Son illər ölkəmizdə tarixi abidələrin bərpası və qorunması istiqamətində bir sıra əhəmiyyətli layihələr böyük uğurla icra olunub. Dövlət tərəfindən, bütün sahələrə olduğu kimi, xüsusi tarixi əhəmiyyət daşıyan abidələrə, qalalara, istehkamlara, məbədlərə, təbii qoruqlara xüsusi diqqət və qayğı artırılıb. Tarixi-dini abidələrin qorunmasına, təmir və bərpasına Azərbaycanın Birinci vitse-Prezidenti Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu da daim öz töhfəsini verir. İstər ölkəmizdə, istərsə də xaricdə dini abidələrin bərpası üzrə layihələr böyük uğurla reallaşdırılır.

İşğal dövründə erməni barbarlarının dağıtdığı abidələrimiz bərpa olunur. Əsrlərin sınağından çıxmış, təbii təsirlərə məruz qalmış və nəticədə, qəza vəziyyətinə düşmüş tarixi-mədəniyyət abidələrinin əksəriyyətində konservasiya işləri aparılır. Təbii ki, abidələr daş yaddaşımıza çevrilib və hər bir xalqın kimliyini, keçdiyi tarixi yolu xatırladır. Şərəfli tariximizin dünənini özündə yaşadan abidələrin qorunması hər bir azərbaycanlının borcudur.

*Vahid MƏHƏRRƏMOV,*
*"Azərbaycan"*

# ÜST peyvəndlənməni sürətləndirməyə çağırır

Son aylar dünyada qızılca xəstəliyinə yoluxanların sayında artım müşahidə edilir. Narahatedici məqam isə spesifik əlamətlərə malik xəstəliyə yoluxanlar arasında ölüm hallarının çoxalmasıdır.



Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) buna səbəb olaraq COVID-19 pandemiyası ilə əlaqədar dünyada qızılcaya qarşı peyvəndlənmənin əhatə dairəsinin azaldığını göstərir. Peyvəndlənmə əhatəsinin 95 faizdən aşağı olduğu ölkələrdə xəstəliyin geniş yayılma riski meydana çıxdığı bildirilir. ÜST bütün ölkələri qızılca və digər xəstəliklərə qarşı hər bir uşağın peyvənd olunması istiqamətində səyləri artırmağa çağırır.

Müəyyən virus infeksiyalarının müalicəsində vaksinasiya ən effektiv yol hesab olunur. Dünyada peyvəndlənmə başladıqdan sonra hər il 90 milyon xəstəliyin, 1,54 milyon ölümün qarşısı alınıb. Lakin peyvənd edilməmiş bir təbəqənin hələ də var olması hər il 40 milyon yoluxma, 1,19 milyon ölüm hadisəsinin olmasını təmin edir.

### Peyvəndin qoruyuculuğu 95 faizdir

Həkim-infeksionist Aişə Kərimova hava-damcı yolu ilə yoluxan qızılcanın yalnız insanlarda rast gəlindiyi bildirir: "Xəstə şəxsin olduğu məkanda viruslar damlacıq halında havada 2-3 saata qədər qala bilirlər. Bir neçə mərhələdən ibarət qızılcanın müddəti 10-12 günə qədər olur. Əvvəlcə prodromal dövr başlayır. Bu zaman yüksək hərarət, boğazda ağrı, konyuktivit, quru öskürək kimi əlamətlər meydana gəlir. Yoluxduruculuq da elə bu zaman başlayır. Daha sonra qızılcaya xas klinik əlamətlər dövrü başlayır və əsasən, bu dövrdə xəstəyə diaqnoz qoyulur. Ağız içində koplik ləkələri, dəridə səpkilər meydana çıxır. Bundan sonra sağalma dövrü başlayır ki, bu zaman səpkilər tədricən solmağa başlayır".

A.Kərimova qeyd edir ki, qızılca uşaq xəstəliyi kimi qəbul edilsə də, belə deyil, çünki hər yaş qrupu ona qarşı həssasdır: "Hazırda rast gəldiyimiz xəstələrin əksəriyyəti peyvənd olunmayanlardır və ya bu haqda dəqiq məlumat verə bilməyənlərdir. Peyvəndin qoruyuculuğu 95 faizdir. Müşahidələr göstərir ki, hər 100 peyvəndli şəxsdən yalnız beşi xəstələnir".

Risk qrupuna peyvəndlənməmiş hər yaş qrupunun daxil olduğunu söyləyən infeksionist bildirir ki, peyvəndli şəxslərdə xəstəliyin gedişatı çox yüngül olur: "Hamilələr, immunsupresiv xəstə qrupu və bir yaşına qədər uşaqlar isə ciddi qorunmalıdır. Çünki bu şəxsləri peyvəndləmək mümkün deyil. Ölüm hallarını da məhz peyvəndin bir yaşından tez edilməməsi, xəstəxanaya gec olunan müraciətlər, uzun müddət davam edən temperaturun ağırlaşma halına gətirməsinin dəyərləndirilməməsi artırır".

### İmmun sistemi formalaşmadığından körpələrə peyvənd vurulmur

Qızılcadan qorunmağın yeganə yolunun peyvəndlənmə olduğunu bildirən həkim-infeksionist infeksiyanın qarşısını almaq məqsədilə uşaqların mütləq olaraq 1 və 6 yaşlarında iki dəfə peyvəndlənməsini tövsiyə edir: "Peyvəndin 1-ci dozasını vaxtında almayan uşaqlar tez bir zamanda vaksinasiya olunmalı, 6 yaşına çatdıqda isə peyvəndin 2-ci dozasını almalıdırlar. Müəyyən səbəblərdən peyvəndin 2-ci dozasını vaxtında almayan 10 yaşa qədər uşaqlar isə gecikmədən peyvəndin 2-ci dozasını almalıdırlar. Eyni zamanda peyvəndin hər iki dozasını vaxtında almamış 10 yaşınadək uşaqlara peyvəndin 1-ci və 2-ci dozaları ən azı 4 həftəlik fasilə ilə vurulmalıdır".

A.Kərimova peyvəndin bir yaşından kiçik uşaqlara vurulmamasının səbəbini belə izah edir: "Körpələrdə immun sistemi formalaşmadığından peyvəndə qarşı immun hüceyrə sintezi təmin edilə bilmir. Yəni peyvənd tutmamazlığı, qoruyuculuğun təmin edilməməsi qeydə alına bilər".

Həkim-infeksionist əlavə edir ki, "qızılca hava-damcı yolu ilə yoluxduğu üçün tənəffüs yollarını qoruyan gigiyenik vasitələrdən, yəni tibbi maskalardan istifadə etmək lazımdır. Həmçinin, şəxsi gigiyena qaydalarına əməl etmək, qapalı və insanların sıx toplaşdığı məkanlara mümkün qədər getməmək lazımdır. Evlərdə, ofislərdə otaqların havası tez-tez dəyişdirilməlidir. Həmçinin, immun sistemini qüvvətləndirmək üçün balanslı qidalanmalı, yuxu rejiminə düzgün riayət etməli, stresdən və zərərli vərdişlərdən uzaq durmaq lazımdır".

***Ülkər XASPOLADOVA,***
***"Azərbaycan"***

OXUCULARIN NƏZƏRİNƏ!

“AZƏRBAYCAN” qəzetinə
*2024-cü il üçün abunə yazılışına başlanılır!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *“Azərpoçt” MMC* | (012) 598-49-55, (051) 225-02-13 |
| *“Azərmətbuatyayımı” ASC* | (012) 441-19-91, (050) 322-33-17 |
| *“Qaya” firması* | (012) 566-77-80, (050) 214-40-53 |
| *“Region Press” MMC* | (055) 316-79-01, (050) 316-79-01 |
| *“Səma-M” MMC* | (012) 594-09-59 |
| *“Ziya” LTD* | (012) 497-76-96, (050) 306-77-22 |
| *“Pressinform” MMC* | (012) 598-49-52, (070) 340-01-00 |
| *“City press” MMC* | (055) 819-09-26 |

**1 illik -187,20** (yüz səksən yeddi manat iyirmi qəpik) **manat**
**6 aylıq - 93,60** (doxsan üç manat altmış qəpik) **manat**
**3 aylıq - 46,80** (qırx altı manat səksən qəpik) **manat**


AZƏRBAYCAN
“Dövlət suverenliyimizin bərpası Azərbaycan xalqının yaddaşında əbədi qalacaqdır”
Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə müraciəti
Azərbaycan COP29 çərçivəsində Yaponiya ilə birgə işbirliyinə hazırdır
Azərbaycan ilə Lüksemburq arasında əlaqələr həm də Avropa İttifaqı çərçivəsində əməkdaşlıq baxımından önəmlidir
Birinci vitse-prezidentin paylaşımı

**Hörmətli oxucular!**
*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya **(Tel.: (012) 539-59-33)** zəng vura bilərsiniz.*

**"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC**
**inzibati binası üçün müxtəlif çıraq və drosellərin satın alınması məqsədilə**
***açıq müsabiqə elan edir***

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 17 yanvar 2024-cü il saat 17:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir). Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: AZ1003, Bakı şəhəri, Mikayıl Useynov küçəsi, 2.**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili: 1177.**

***Tender komissiyası***

# Almaniyada fermerlər hökumətin planlarına etiraz edirlər

## Yollar traktorlarla bağlanıb, nəqliyyatın hərəkətində problemlər yaranıb

Yanvarın 8-də Almaniya Kəndlilər Birliyinin (DBV) təşkil etdiyi etiraz həftəsi başlayıb. Fermerlər hökumətin kənd təsərrüfatına subsidiyaları azaltmaq planlarına etiraz edirlər. Ümumilikdə, bütün Almaniyada fermerlərin 100-dən çox etiraz aksiyası planlaşdırılıb.







Fermerlər nümayişlər çərçivəsində traktorlarla yolları bağladığı üçün bir çox bölgədə nəqliyyatın hərəkəti iflic olub, ciddi problemlər yaranıb. Texnikaların üstünə "Fermersiz gələcək yoxdur", "Biz 20 maaş artıq almağa çalışmırıq, varlığımız üçün mübarizə aparırıq", "Biz alman kənd təsərrüfatının tərəfdarıyıq" və "Davam edin! Əks halda, tezliklə iflasa sürüklənəcəyik" şüarları yazılmış plakatlar yapışdırılıb. Bəzi fermerlər qoşqu ilə gəliblər, çünki aksiyanı hələ bir həftə davam etdirmək fikrindədirlər.

DBV-nin rəhbəri Yoahim Rukvid Almaniya sakinlərini mümkün narahatçılığa görə anlayış göstərməyə çağırıb. Bununla əlaqədar o "Stern" jurnalına müsahibəsində bildirib: "Biz etiraz aksiyamızı dinc və demokratik şəkildə təşkil etmək istəyirik. Amma biz traktorlarla hərəkət edəndə bu, qaçılmaz olaraq nəqliyyatın hərəkətinin pozulmasına gətirib çıxaracaq".

Alman fermerlər dekabr ayından kütləvi etiraz aksiyaları təşkil edirlər. Bu, onların 2024-cü ildə büdcəyə qənaət çərçivəsində dizel yanacağına endirimlərdən və vergi güzəştlərindən məhrum olmaları ilə bağlıdır. Almaniya Maliyyə Nazirliyinin hesablamalarına görə, belə bir addım büdcəyə hər il 480 milyon avro qənaət etməyə imkan yaradacaq.

Sonradan ölkənin Nazirlər Kabineti planlarına düzəliş etməyə qərar verib. Yeni qərara əsasən, müavinətlər tamamilə və eyni vaxtda deyil, tədricən və qismən ləğv ediləcək.

Bununla belə, Almaniya Kəndlilər İttifaqı kənd təsərrüfatı sektoru üçün nəzərdə tutulan vergi artımlarını qəbul etməyəcəklərini vurğulamaq üçün etirazlarını davam etdirir. Rukvidin dediyinə görə, "bu planlar gündəmdən çıxarılmalıdır. Biz fikrimizi dəyişməyəcəyik".

Bir neçə gün əvvəl fermerlər barədə vitse-kansler, AFR-in iqtisadiyyat və iqlim mühafizəsi naziri Robert Habekin qarşısını kəsiblər. O, tətildən qayıdarkən körpüdə qəzəbli etirazçılar tərəfindən qarşılanıb. Habek onların nümayəndələri ilə söhbət etməyi təklif edib, lakin fermerlər onun təklifini rədd ediblər. Polis bərənin qarşısını açmaq üçün gözyaşardıcı qazdan istifadə edib. Almaniya hökuməti bu hadisəni kəskin şəkildə pisləyib. Öz növbəsində Daxili İşlər Nazirliyi sağçı ekstremist qüvvələrin fermerlərin etirazlarından öz məqsədləri üçün istifadə etmək cəhdlərinə qarşı xəbərdarlıq edib. Son məlumata görə, Münhen, Hamburq, Visbaden və digər şəhərlərdə böyük etiraz aksiyaları gözlənilir. Bavariyadakı bəzi məktəblər distant təhsilə keçir. Fermerlərin əsas tələbləri vergilərin azaldılması və maaşların artırılmasıdır.

Qeyd edək ki, INSA İnstitutunun "Bild" tabloidi üçün keçirdiyi sorğunun nəticələrinə əsasən, ölkə vətəndaşlarının təxminən üçdəikisi Almaniya kansleri Olaf Şoltsun vəzifəsindən uzaqlaşdırılmasını istəyir.

***Rizvan CƏFƏROV,***
***"Azərbaycan"***

# Revanşistlər kilsə ilə birləşirlər

## Hayastan daxili parçalanma təhlükəsi ilə üz-üzədir

Hayastanda Nikol Paşinyan hakimiyyətinin siyasətinə qarşı çıxan sabiq iqtidar təmsilçiləri yeni qarşıdurma yolu tutaraq ölkədə növbəti xaos yaratmaq məqsədi güdürlər. Belə ki, son günlərdə Azərbaycanla sülh müqaviləsinin imzalanması ilə bağlı gedən müzakirələr fonunda sosial narazılıqlardan istifadə edən Sarkisyan-Koçaryan koalisiyasının revanş istəyi vəziyyətin daha da qarışacağını göstərir.



Proseslər göstərir ki, keçmiş hərbi xunta yaranmış vəziyyətdən istifadə edərək, kilsəni də siyasi proseslərə qoşaraq ölkədəki xaosu daha da dərinləşdirməyə çalışır. Bütün bunların fonunda Hayastanda kilsə və hakimiyyətin qarşıdurması açıq müstəviyə keçir. Bu qarşıdurmada əsas motiv Qarabağ məsələsidir. Katolikos II Qaregin Hayastanın daxili parçalanma təhlükəsi ilə üzləşdiyini bildirib. İddia edib ki, Qarabağı da buna görə "itiriblər".

Kilsənin erməni terroru və iddialarında əsas rol oynadığını nəzərə alsaq, Qareginin çağırışının Azərbaycan-Hayastan sülh danışıqlarına ciddi problem yarada biləcəyi görünür. Paşinyan hakimiyyəti Qareginin mövqeyini qəbul etməsə də, kilsənin bu çağırışı erməni revanşizminin davam edəcəyindən xəbər verir.

Qeyd edək ki, 6 il öncə hakimiyyətə gələn Paşinyan II Qaregin qarşı çıxmışdı. Lakin sonradan münasibətləri yaxşılaşdırmağa məcbur olub. Çünki başqa çıxış yolu olmayıb. Paşinyan II Qaregin və onun rəhbərlik etdiyi Eçmiədzin kilsəsi ətrafında yaranan problemli vəziyyəti həll etmək üçün Kilikiya böyük kilsəsinin katolikosu I Arama bütün ermənilərin katolikosu olmağı təklif edib. Lakin I Aram bu təklifdən imtina edərək Paşinyana bildirib ki, kilsə ilə münasibətlər bu üsulla tənzimlənmir. I Aram təklifi qəti rədd etdikdən sonra Paşinyan II Qareginlə münasibətlərini yaxşılaşdırmağa məcbur olub.

Hayastanda din amili böyük əhəmiyyət kəsb etdiyindən hakimiyyətə gələnlər mütləq kilsənin də dəstəyinə nail olmağa çalışırlar. Lakin əhalinin etirazları fonunda Paşinyan əvvəlki hökumətin adamı olan II Qaregini vəzifədən uzaqlaşdırmağa çox cəhd etsə də, səriştəsizliyi üzündən bütün səyləri nəticəsiz qalıb.

Azərbaycanla Ermənistan arasında sülh müqaviləsinin imzalanmasının aktuallaşdığı bir dönəmdə hərbi xuntanın və ona bənzər digər ara qızışdıranların çevriliş etmək xəyalları erməni xalqını növbəti dəfə fəlakətə sürükləyir. Azərbaycanla müharibədəki məğlubiyyət Hayastanı elə bir uçuruma yuvarladıb ki, xilası mümkün deyil. Bütün bunlar, o cümlədən Koçaryan və Sarkisyan kimi müharibə cinayətkarlarının hakimiyyətləri dövründən yığılıb qalmış ağır problemlər hazırkı hakimiyyəti çətin vəziyyətdə qoyub. Əslində, revanşist qüvvələr çox yaxşı başa düşürlər ki, böyük siyasətə qayıtmaq üçün heç bir şansları yoxdur - xalq hələ onların acınacaqlı hakimiyyət dövrünü unutmayıb.

Sarkisyan-Koçaryan koalisiyası hakimiyyətə qayıtmaq üçün xaricdən, indiki halda Rusiyadan yardım alacağına ümid bəsləyir. "4rd.am" nəşri yazır ki, Hayastanda hakimiyyət çevrilişi istisna olunmur: "Məlumata görə, danışıqlar prosesi ilə paralel olaraq müxtəlif platformalarda başqa diqqətçəkən müzakirələr də gedir. Diplomatik mənbələrdən alınan məlumatlara görə, mümkün Hayastan-Azərbaycan razılaşmasının maraqlı mərkəzləri, xüsusən də Qərb sənədin imzalanmasından sonra Nikol Paşinyanın hakimiyyətdə qalması məsələsinin çox ciddi problemə çevrilə biləcəyini anlayaraq, bu günlərdə alternativ, "ehtiyat" variantının müzakirəsi ilə bağlı fəallıq nümayiş etdirir. Həmin mərkəzlər başa düşürlər ki, müqavilə imzalanandan sonra Paşinyanı hakimiyyətdə saxlamaq nəinki qeyri-mümkün ola, həm də məqsədəuyğun olmaya bilər. Buna görə də onlar "B planı" tapmağa çalışırlar".

Hər halda proseslərin gedişi Hayastanı qarşıdakı dövr ərzində daha çətin günlərin və qarşıdurmaların gözlədiyini göstərir.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti 539-49-20

BAŞ REDAKTOR
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, “Azərbaycan” nəşriyyatı, IV mərtəbə*

contact@azerbaijan-news.az
az.reklam@mail.ru




www.azerbaijan-news.az

Qeydiyyat № 1

“Azərbaycan” qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, “Azərbaycan Nəşriyyatı” MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti

Tiraj 3387
Sifariş 14

Qiyməti 60 qəpik